RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 222 (9677) 10 oktyabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## COP29 iştirakçı ölkələr arasında konsensusun yaradılmasına böyük töhfə verəcəkdir

### Prezident İlham Əliyev ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşavirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşaviri Con Podestanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Con Podesta COP29-la bağlı azərbaycanlı həmkarlarla çox səmərəli və məhsuldar söhbətlərin aparıldığını dedi.

→ 2

## Azərbaycan dünyanın qlobal tərəfdaşları arasında bir körpüdür

### Prezident İlham Əliyev BMT Baş katibinin birinci müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da BMT Baş katibinin birinci müavini Amina Mohammedi qəbul edib. AZƏRTAC xəbər verir ki, Amina Mohammed BMT Baş katibinin salamlarını dövlətimizin başçısına çatdırdı.**

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı COP çərçivəsində BMT Baş katibini Azərbaycanda məmnuniyyətlə gözlədiyini dedi.

→ 2

## Azərbaycanın və Böyük Britaniyanın COP komandaları arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu

### Prezident İlham Əliyev Böyük Britaniyanın beynəlxalq enerji və iqlim üzrə nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının beynəlxalq enerji və iqlim üzrə naziri Keri Makkartini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, COP29-un əhəmiyyətinə toxunan Prezident İlham Əliyev onun keçirilməsi ilə bağlı Azərbaycanın bir ildən də az vaxtı olmasına baxmayaraq, ölkəmizdə bu tədbirlə əlaqədar yüksək səviyyədə hazırlıq işlərinin getdiyini bildirdi.

→ 2

# Tarixi əməkdaşlıq və müttəfiqlik



## Azərbaycan-Rusiya münasibətləri müsbət istiqamətdə inkişaf edir

2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb. Sənəddə bildirilir ki, tərəflər iki ölkənin ticarət-iqtisadi əlaqələrinin davamlı artımının təmin edilməsi üçün vacib əhəmiyyəti olan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işinə hərtərəfli yardım göstərməyə davam edəcəklər. Həmçinin qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətindədirlər. Tərəflərin milli qanunvericilikləri çərçivəsində metallurgiya, neft-qaz və ağır maşınqayırma, aviasiya, avtomobil, kimya, əczaçılıq və yüngül sənaye, kənd təsərrüfatı, yol-tikinti və qida maşınqayırması müəssisələri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinə imkan yaradacağı da qeyd olunur. İntellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə edilməklə tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafı, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin davamlı və tammiqyaslı fəaliyyəti üçün texniki və iqtisadi şəraitin təmin edilməsi hədəfə alınır. Beynəlxalq enerji əməkdaşlığının stimullaşdırılması və qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə sıx qarşılıqlı fəaliyyət həyata keçirərək yanacaq-energetika sahəsində, o cümlədən səmərəli infrastruktur layihələrinin cəlb edilməsi də daxil olmaqla neft-qaz yataqlarının kəşfiyyatı və emalı, enerji resurslarının nəqli sahəsində, eləcə də alternativ və bərpaolunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində əməkdaşlığı dərinləşdirmək niyyəti ifadə olunur. Tərəflərin aqrar-sənaye kompleksi sahəsində, o cümlədən kənd təsərrüfatı məhsulları ilə təchizetmə, kənd təsərrüfatı məhsullarının istehsalının, emalının və saxlanmasının aparıcı texnologiyalarından istifadə məsələləri, eləcə də fitosanitar normalara əməletmə üzrə əlaqələrin inkişafına və təcrübə mübadiləsinə yardım edəcəkləri də göstərilir.

→ 10

## Prezident İlham Əliyev Hadrutun azad edilməsinin dördüncü ildönümü münasibətilə paylaşım edib



**Prezident İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunmasının dördüncü ildönümü münasibətilə sosial şəbəkə hesablarında video paylaşıb.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Zəfər tariximiz - Hadrutun Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## COP29 Azərbaycanın qlobal nüfuzunu daha da artıracaq

COP29 konfransı Azərbaycan üçün yalnız bir nüfuzlu beynəlxalq tədbir deyil, həm də davamlı inkişaf strategiyamızın bir hissəsi və iqlim dəyişikliyi ilə mübarizədə lider ölkələrdən biri olmaq üçün bir platformadır: "Biz ev sahibi olan ölkə kimi, bu tədbirin yüksək səviyyədə keçirilməsini təmin edəcək və qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizəyə öz töhfəmizi verəcəyik. Dünyanın diqqəti bu dövrdə Bakıya yönələcək və ölkəmiz ekoloji problemlər və iqlim dəyişiklikləri ilə bağlı müzakirələrin mərkəzində dayanacaqdır".

Bu beynəlxalq tədbirdə dünyanın müxtəlif ölkələrindən dövlət nümayəndələri, müşahidəçi təşkilatlar, beynəlxalq media, qeyri-hökumət təşkilatları, özəl sektor və digər nümayəndələr iştirak edəcəklər. Azərbaycan bu tədbir vasitəsilə iqlim dəyişikliyi ilə mübarizədə fəal rol oynadığını bir daha sübuta yetirəcək. Bu barədə danışan Sadiq Qurbanovun sözlərinə görə, COP29 konfransının Azərbaycanda keçirilməsi iqlim dəyişikliklərinə qarşı qlobal mübarizədə ölkəmizin liderliyini nümayiş etdirmək üçün əvəzsiz bir imkandır.

→ 7

## Revanşistlərin keşiş planı iflasa uğrayır

### Baqrat Qalstanyanla bağlı dələduzluq ittihamı yenidən aktuallaşıb

Baqrat Qalstanyanla bağlı dələduzluq ittihamı yenidən aktuallaşıb. "4rd.am" saytı yazır ki, Kanada erməniləri bildirib ki, Baqrat kilsə tikintisi üçün toplanmış 12 milyon dolları oğurlayıb və Ermənistana qaçıb. Onlar belə bir dələduzun Ermənistanı fəlakətə apara biləcəyi barədə ermənilərə xəbərdarlıq edirlər.

Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldıran, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alan revanşistlərdən biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Ermənistanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporu tərəfindən dəstəklənir. O, sülh prosesinin və Ermənistan - Türkiyə əlaqələrinin bərpasına qarşı sərt müxalif mövqe tutub.

→ 12

# COP29 iştirakçı ölkələr arasında konsensusun yaradılmasına böyük töhfə verəcəkdir

## Prezident İlham Əliyev ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşavirini qəbul edib



*Əvvəli 1-ci səh.*

Qonaq Azərbaycan Prezidenti ilə COP29 barədə fikir mübadiləsi aparmaqdan məmnunluq hissi keçirdiyini vurğuladı. Con Podesta dedi ki, COP sədri qismində ölkəmizin hazırlıq üçün vaxtının az olmasına baxmayaraq, Azərbaycan heyəti tərəfindən yüksək peşəkarlıq nümayiş etdirilib. O, qarşıdan gələn COP-da ikiillik şəffaflıq hesabatları və digər məsələlər, xüsusilə də yeni kəmiyyət maliyyə hədəfi üzrə mühüm qərarların qəbul olunmasının vacibliyini bildirdi.

Prezident İlham Əliyev Con Podestanın Azərbaycan tərəfi ilə yaxşı əlaqələr yaratmasını məmnunluqla qeyd etdi. COP29-un əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu tədbirin yaxşı nəticələr verəcəyinə ümidvarlığını bildirdi. Prezident İlham Əliyev bu konfransın keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az müddət olmasına baxmayaraq, onun yüksək səviyyədə təşkil olunması və iştirakçı ölkələr arasında konsensusun əldə edilməsi istiqamətində Azərbaycanın böyük səylər göstərdiyini dedi. Azərbaycan tərəfinin sədr olaraq ölkələr arasında körpülərin qurulmasına çalışdığını vurğulayan dövlətimizin başçısı ölkəmizin bir sıra təsisatlarda üzvlüyünün və müxtəlif dövlətlərlə yaxın əlaqələrinin olmasının COP29-da konsensusun qurulması prosesinə töhfə verəcəyinə ümidvarlığını ifadə etdi.

Söhbət zamanı Azərbaycan və ABŞ COP nümayəndə heyətləri arasında yaxşı əməkdaşlığın olduğu vurğulandı. Bakıda keçirilən COP29 ilə bağlı tədbirlərin vacibliyi qeyd olundu və bu çərçivədə aparılan müzakirələrin qarşıdan gələn COP tədbirinin gündəliyinin müəyyən olunması üçün önəmi bildirildi.

Con Podesta ABŞ-nin regional sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı.

44 günlük Vətən müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin və onun əsasını təşkil edən beş fundamental prinsipin təşəbbüskarının məhz Azərbaycan tərəfi olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmiz regional sülh gündəliyini dəstəkləyir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli gündəliyə aid məsələlər də müzakirə olundu.

# Azərbaycan dünyanın qlobal tərəfdaşları arasında bir körpüdür

## Prezident İlham Əliyev BMT Baş katibinin birinci müavinini qəbul edib



*Əvvəli 1-ci səh.*

Qonaq ölkəmizdə COP29-un təşkil olunması işində Azərbaycan Prezidentinin rəhbərliyini yüksək qiymətləndirdi. O, BMT-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında COP gündəliyinin irəli aparılması üzrə əməkdaşlıqdan məmnunluğunu ifadə etdi, Azərbaycan nümayəndə heyəti ilə yaxşı əməkdaşlığın və əlaqələrin olduğunu vurğuladı.

Amina Mohammed Gələcəyin Paktı sənədinə Azərbaycanın da qoşulmasını və onu dəstəkləməsini yüksək qiymətləndirdi. O, iqlim dəyişikliyi ilə Dayanıqlı İnkişaf Məqsədləri arasında birbaşa əlaqənin olduğunu bildirərək, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi nailiyyətləri vurğuladı.

BMT Baş katibinin birinci müavini Azərbaycanın sədrlik etdiyi COP-da əsas mövzunun maliyyə məsələsi olacağına toxunaraq, yeni kəmiyyət maliyyə hədəfi ilə əlaqədar beynəlxalq ictimaiyyət tərəfindən qarşıya yeni məqsədlərin qoyulacağına və onun müəyyənləşdiriləcəyinə ümidvarlığını ifadə etdi.

Dövlətimizin başçısı COP-a hazırlıq prosesində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) və təşkilatın digər strukturları ilə əməkdaşlıqdan məmnunluğunu bildirdi.

Azərbaycan dövlətinin uzun illər beynəlxalq aləmdə fəal rolunu, həmçinin dünyanın qlobal iştirakçıları arasında bir körpü olduğunu məmnunluqla vurğulayan Prezident İlham Əliyev COP29-un uğurla keçəcəyinə ümidvarlığını ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı ilə fəal əməkdaşlıq həyata keçirdiyini, bir sıra Avropa ölkələri ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalandığını vurğulayaraq bildirdi ki, bütün bunlar Azərbaycanda COP29-un uğurla keçiriləcəyinə yaxşı əsas yaradır. Prezident İlham Əliyev ölkəmizin COP29-da konsensusun əldə olunması üçün səylər göstərdiyini bildirdi. Dövlətimizin başçısı "troyka" formatına toxunaraq, Azərbaycanın COP28-ə evsahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri və COP30-a evsahibliyi edəcək Braziliya ilə fəal işlər apardığını dedi.

Görüşdə COP29-un təşkili və ölkəmizin bu mötəbər tədbirə sədrliyi ilə əlaqədar fikir mübadiləsi aparıldı. Bakıda COP29 ilə bağlı keçirilən tədbirlərin önəmi qeyd edilərək, burada aparılan müzakirələrin COP29-un gündəliyinin müəyyən olunması baxımından vacibliyi vurğulandı.

# Azərbaycanın və Böyük Britaniyanın COP komandaları arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu

## Prezident İlham Əliyev Böyük Britaniyanın beynəlxalq enerji və iqlim üzrə nazirini qəbul edib

*Əvvəli 1-ci səh.*

Azərbaycanın ölkələr və beynəlxalq aləmin qlobal iştirakçıları arasında körpü qurulması işində fəal rol oynadığını deyən dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz uzun illərdir beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirir və Qoşulmama Hərəkatına uğurla sədrlik etmişdir. Bütün bunlar da COP29-un təşkili üçün yaxşı əsas yaradır. Söhbət zamanı Azərbaycanın və Böyük Britaniyanın COP komandaları arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu, Britaniya hökumətinin gündəliyində iqlim dəyişməsinin prioritet məsələ olduğu bildirildi.

Görüşdə bərpaolunan enerji sahəsində ölkələrimiz arasında əməkdaşlığın perspektivləri, həmçinin Azərbaycanın COP-un gündəliyində duran prioritetləri və təşəbbüsləri müzakirə olundu.



Dövlətimizin başçısı Azərbaycanın bərpaolunan enerji istiqamətində həyata keçirdiyi tədbirlərə toxundu. Ölkəmizin bərpaolunan enerji potensialının artması, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə çəkiləcək kabel xətti üzrə dördtərəfli layihə, həmçinin Mərkəzi Asiya ilə Azərbaycanı birləşdirən bərpaolunan enerji layihəsi barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı COP29-un gündəliyinin müəyyən edilməsi baxımından Bakıda keçirilən COP29 ilə bağlı tədbirlərin əhəmiyyətinə toxunuldu.

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328 (Cild I); 2024, № 3, maddə 263) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 6.2-ci bəndində "980 700 000 (doqquz yüz səksən milyon yeddi yüz min)" sözləri "1 068 400 000 (bir milyard altmış səkkiz milyon dörd yüz min)" sözləri ilə əvəz edilsin.

2. Bu Fərmanın 1-ci hissəsinin icrası "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanının 1.11.7.9.1-ci abzası ilə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond) nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) üçün 2024-cü ilin dövlət büdcəsindən fonda ayrılan 87 700 000 (səksən yeddi milyon yeddi yüz min) manat hesabına təmin edilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

4. Fond bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 oktyabr 2024-cü il*

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi NATO nümayəndə heyəti ilə görüşüb

## Qonaqlar Şəhidlər xiyabanı və Hərbi Qənimətlər Parkını ziyarət ediblər

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının Baş direktoru general-leytenant Yanuş Adamçak ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik K.Vəliyev NATO ilə münasibətlərin cari vəziyyətini yüksək qiymətləndirib və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbənin tarixi əhəmiyyətindən danışan Baş Qərargah rəisi hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət olunduğunu və mülki əhalinin hədəfə alınmadığını xüsusi qeyd edib.

"Ölkəmiz azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərini, eləcə də humanitar minatəmizləmə fəaliyyətini sürətlə davam etdirir. Qarşımızda duran əsas maneə Ermənistanın işğalı nəticəsində yaranmış mina terrorudur", - deyə general-polkovnik K.Vəliyev bildirib. Qonaqlar həmçinin Azərbaycan-Ermənistan şərti sərhədində cari vəziyyət barədə də ətraflı məlumatlandırılıb.

General-polkovnik K.Vəliyev NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində bölmələrimizin hazırlığına böyük töhfə verildiyini bildirərək, əməkdaşlığımızın bundan sonra da davam etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Baş Qərargah rəisi şərti sərhədin Ermənistan ərazisində Avropa İttifaqının müşahidəçi missiyasının yerləşdirilməsi, habelə regiondan kənar bəzi ölkələrin, xüsusilə Fransanın Ermənistanı silahlandırmasının orada revanşist qüvvələrin baş qaldırmasına, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması və sülh prosesinə əngəl yaratmaqla Cənubi Qafqazda vəziyyətin gərginləşdirilməsinə səbəb olduğunu xüsusi vurğulayıb.



General-leytenant Y.Adamçak ölkəmizə səfərindən məmnunluğunu ifadə edib, Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO ilə tərəfdaşlıq çərçivəsində bütün sahələrdə fəaliyyətini yüksək qiymətləndirib, o cümlədən Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş və digər sülhməramlı missiyalarda verdiyi töhfəyə görə minnətdarlığını bildirib.

Görüşdə hərbi, hərbi təhsil sahəsində birgə əməkdaşlıq, regional təhlükəsizlik və digər məsələlər müzakirə edilib.

Səfər çərçivəsində NATO nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş 20 Yanvar və Birinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Qonaqlar həmçinin Hərbi Qənimətlər Parkında olub, Vətən müharibəsi zamanı düşməndən qənimət götürülmüş atıcı silah, zirehli və xüsusi texnika, artilleriya qurğuları, raket kompleksləri və digər hərbi təyinatlı vasitələrə baxıblar.

Ölkəmizdə olduğu müddətdə NATO nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu və Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsini də ziyarət edib.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 447 **QƏRAR** Bakı şəhəri, 8 oktyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 977 (Cild I); 2024, № 1, maddə 80) ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "I. "Sənətşünaslıq, mədəniyyət və incəsənət" peşə istiqaməti üzrə" hissənin "030102 Kargüzarlıq" ixtisas qrupuna "Kargüzar" ixtisasından sonra "Kargüzarlıq və ofis xidmətləri üzrə mütəxəssis" ixtisası əlavə edilsin.

2. "II. "İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə" peşə istiqaməti üzrə" hissə üzrə:

2.1. "030206 Qaz avadanlıqlarının təmiri və istismarı" ixtisas qrupuna "Yeraltı qaz kəmərlərinin təmiri və istismarı üzrə çilingər" ixtisasından sonra "Qaz təsərrüfatı qurğularının istismarı" ixtisası əlavə edilsin;

2.2. "030208 İaşə xidməti" ixtisas qrupuna "Barista" ixtisasından sonra "Qida və içki üzrə nəzarətçi" ixtisası əlavə edilsin;

2.3. "030213 Bələdçilik" ixtisas qrupuna "Turizm təşkilatçısı" ixtisasından sonra "Turizm bələdçiliyi" ixtisası əlavə edilsin;

2.4. "030214 Avtomatlaşdırılmış texnologiyalar və istehsal" ixtisas qrupuna "Avtomatika üzrə usta" ixtisasından sonra "Robototexnika" ixtisası əlavə edilsin;

2.5. "030219 İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti" ixtisas qrupuna "Kompüter ustası" ixtisasından sonra "Veb proqram tərtibatçısı" ixtisası əlavə edilsin.

3. "III. "Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı" peşə istiqaməti üzrə" hissə üzrə:

3.1. "030301 Bitkiçilik" ixtisas qrupuna "Meyvə ustası" ixtisasından sonra "Bağçılıq və tərəvəzçilik" və "Aqronomluq" ixtisasları əlavə edilsin;

3.2. "030302 Kənd təsərrüfatı nəqliyyatı və elektrik avadanlığına xidmət" ixtisas qrupuna "Kənd təsərrüfatı və inşaat texnikasının (maşınlarının) istismarı" ixtisasından sonra "Aqrar (fermer) təsərrüfatının təşkili" ixtisası əlavə edilsin;

3.3. "030307 Meliorasiya və çilingər işləri" ixtisas qrupuna "Suvarma sistemlərinin operatoru" ixtisasından sonra "Su təsərrüfatı qurğularının istismarı" ixtisası əlavə edilsin;

3.4. "030321 Ağac emalı qurğuları, mebel sənayesi, ağac məmulatları və yarımfabrikatların hazırlanması" ixtisas qrupuna "Üzlükçü dizayner" ixtisasından sonra "Mebel dizayneri" ixtisası əlavə edilsin.

4. "IV. "Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları" peşə istiqaməti üzrə" hissəyə aşağıdakı məzmunda "030433 Geomatika" ixtisas qrupu əlavə edilsin:

| | | |
|---|---|---|
| 030433 | Geomatika | Geodeziya üzrə mütəxəssis |
| | | Kartoqrafiya üzrə mütəxəssis |

5. "VI. "Aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri" peşə istiqaməti üzrə" hissə üzrə:

5.1. "030601 Uçan aparatların planer və sistemlərinin təmiri və istismarı" ixtisas qrupuna "Aviasiya yanacaq-sürtkü materiallarının texnoloji avadanlıqları üzrə mexanik" ixtisasından sonra "Dronların texniki xidməti və təmiri üzrə texnik" ixtisası əlavə edilsin;

5.2. "030616 Hərəkət tərkibinin təmiri və xidməti" ixtisas qrupuna "Dəmiryol stansiyası və keçidi növbətçisi" ixtisasından sonra "Qatar elektromexaniki" ixtisası əlavə edilsin;

5.3. "030624 Avtomobillərin təmiri - sürücülük" ixtisas qrupuna "Avtomobil mexatronikası üzrə texnik" ixtisasından sonra "Elektrik və hibrid avtomobillərin texniki qulluğu və təmiri üzrə texnik" ixtisası əlavə edilsin;

5.4. aşağıdakı məzmunda "030635 Hava nəqliyyatı vasitələrinin texniki vəziyyəti" ixtisas qrupu əlavə edilsin:

| | | |
|---|---|---|
| 030635 | Hava nəqliyyatı vasitələrinin texniki vəziyyəti | Nəqliyyat vasitələrinin texniki istismarı (hava nəqliyyatı üzrə) |

6. "VIII. "İlkin tələbat və qida məhsullarının texnologiyası" peşə istiqaməti üzrə" hissənin "030802 Çörək məmulatlarının hazırlanması" ixtisas qrupuna "Xəmir qəlibçisi" ixtisasından sonra "Çörək və unlu qənnadı məmulatlarının texnologiyası" ixtisası əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 448 **QƏRAR** Bakı şəhəri, 8 oktyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1133-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 331 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2.2-ci yarımbənd üzrə:

1.1. "8.2-ci" sözləri "8.1-ci" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü abzas aşağıdakı redaksiyada verilsin:

"3. övladlığa götürənlərə münasibətdə valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarının, qəyyumlara münasibətdə valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar üzərində qəyyumluq müəyyən edilməsi barədə müvafiq qərarın surəti;".

2. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.3. Qanunun 8.2-ci maddəsinin tətbiqi zamanı bu Qaydanın 2.2.1-ci və 2.2.2-ci yarımbəndlərində nəzərdə tutulanlara əlavə olaraq:

1. qadın valideynlik hüququndan məhrum edildiyi və ya nikaha xitam verildiyi üçün uşağın (uşaqların) kişinin himayəsinə verildiyi, habelə qadının xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarının surəti;

2. qadının ölüm haqqında şəhadətnaməsinin surəti;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 449 **QƏRAR** Bakı şəhəri, 8 oktyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 17 oktyabr tarixli 306 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının seçilməsi Qaydası"nda, 2016-cı il 26 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Piyada zolağında hərəkətin svetoforla nizamlanması və avtomobil yollarında yerüstü və ya yeraltı keçidlərin tikilməsi vacib olan hallar"da, 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə, 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"ndə və 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının "Məhkəmələr və hakimlər haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Əmək pensiyaları haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Dəniz limanları haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 iyul tarixli 582-VIQD nömrəli və "Yol hərəkəti haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnformasiya əldə etmək haqqında", "Biometrik informasiya haqqında", "Fərdi məlumatlar haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 iyul tarixli 584-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 17 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1224 (Cild I); 2024, № 2, maddə 237, № 3, maddə 301; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyul tarixli 364 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının seçilməsi Qaydası"nın 5.5.5-ci yarımbəndinə "məlumatların" sözündən əvvəl "nitqdə" sözü əlavə edilsin və həmin yarımbənddə "nitqdə qüsurun" sözləri "pozuntunun" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 353 (Cild I) ilə təsdiq edilmiş "Piyada zolağında hərəkətin svetoforla nizamlanması və avtomobil yollarında yerüstü və ya yeraltı keçidlərin tikilməsi vacib olan hallar"ın 1.1.8-ci yarımbəndində "kor" sözü "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I); 2024, № 2, maddə 230) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.12-ci yarımbəndində "qüsur" sözü "pozuntu" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 3.1.12-ci yarımbəndində "qüsur" sözü "pozuntu" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1056 (Cild I); 2024, № 3, maddə 337) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində işin təşkili və əlaqələndirilməsi Qaydaları"nın 3.1.3-cü yarımbəndinin ikinci cümləsində "əlil" sözü "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-BMT əlaqələrinin cari vəziyyəti və perspektivləri müzakirə olunub



Oktyabrın 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə BMT Baş katibinin müavini Amina Mohammed arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-BMT əlaqələrinin cari vəziyyəti və perspektivləri, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar hazırlıq prosesləri, Azərbaycanın COP29 sədrliyinin prioritetləri müzakirə olunub.

Azərbaycanın çoxtərəfli diplomatiyada, eləcə də BMT təsisatlarında rolunun əhəmiyyətinə diqqət çəkən BMT Baş katibinin müavini ölkəmizin COP29-un təşkil olunması istiqamətində apardığı fəaliyyəti yüksək qiymətləndirib. Bununla yanaşı, sülh və təhlükəsizlik, yeni texnologiyalar, gələcəyin maliyyə arxitekturası kimi elementlərin də əks olunduğu Gələcəyin Sammiti zamanı qəbul edilmiş yekun sənədin vacibliyi vurğulanıb. Tərəflər daha sonra ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi nailiyyətləri nəzərdən keçirərək bu işdəki əhəmiyyətli inkişafı məmnunluqla qeyd ediblər.

Nazir C.Bayramov Azərbaycanın sədrlik etdiyi COP29 çərçivəsində aparılan danışıqlar prosesi barədə ətraflı məlumat verərək iqlim dəyişmələri ilə mübarizədə tələb olunan maliyyə vəsaitinin qarşılanması üçün yeni kəmiyyət maliyyə hədəfi müəyyənləşdirilməsinə çalışıldığı, bunun üçün konsensusun əhəmiyyətini diqqətə çatdırıb. Tərəflər bu istiqamətdə BMT və beynəlxalq maliyyə təsisatlarının dəstəyinin əhəmiyyətini vurğulayıblar. Eyni zamanda COP29 sədrliyi tərəfindən müxtəlif istiqamətlərdə irəli sürülən 14 təşəbbüsə dəstək barədə məlumat verilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# TDT xarici işlər nazirlərinin müavinləri səviyyəsində çoxtərəfli siyasi məsləhətləşmələr keçirilib

Ankara şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) xarici işlər nazirlərinin müavinləri səviyyəsində çoxtərəfli siyasi məsləhətləşmələr keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, çoxtərəfli siyasi məsləhətləşmələrdə Azərbaycanın nümayəndə heyətinə xarici işlər nazirinin müavini Elnur Məmmədov rəhbərlik edib.

Siyasi məsləhətləşmələr zamanı TDT çərçivəsində siyasi, iqtisadi, ticarət, nəqliyyat-kommunikasiyalar, humanitar və s. istiqamətlər üzrə əməkdaşlığın gücləndirilməsinin mövcud perspektivləri və gələcək planlar, habelə təşkilatın Bişkek Sammitinin təşkilindən irəli gələn məsələlər müzakirə olunub.

Siyasi məsləhətləşmələrin Naxçıvan sazişi ilə təsis olunan TDT-nin yaradılmasının 15 illiyinə təsadüf etməsi xüsusilə qeyd olunub. Bu münasibətlə nazir müavini Elnur Məmmədov tarixi Naxçıvan sazişinin 15 illiyinə həsr olunmuş xüsusi xatirə hədiyyəsini təşkilatın Baş katibi Kubanıçbek Ömüralıyevə təqdim edib.

Ötən 15 il ərzində təşkilat çərçivəsində türk dünyasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişafının, əlaqələrin gücləndirilməsinin məmnunluq doğurduğu, bundan sonra da mövcud imkanlardan istifadə etməklə bu istiqamətdə səylərin davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Azərbaycanın ailəmiz hesab etdiyimiz türk dünyasını birləşdirən təşkilatın daha da inkişaf etməsinə xüsusi əhəmiyyət verdiyi, bu istiqamətdə bir sıra təşəbbüslərlə çıxış etdiyi, cari ildə Şuşa şəhərində keçirilən qeyri-rəsmi Zirvə görüşünün və Qarabağ Bəyannaməsinin qəbul edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Nazir müavini Elnur Məmmədov Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, ölkəmizin yenidənqurma və sülh səylərinin hazırkı durumu barədə ətraflı məlumat verib.

Çoxtərəfli siyasi məsləhətləşmələr çərçivəsində həmçinin nümayəndə heyətlərinin rəhbərləri Türkiyənin xarici işlər naziri Hakan Fidanla da görüşüblər.

# *Ramil HƏSƏN:* "Barışığa nail olmaq üçün qərbi azərbaycanlıların qayıdış hüququna hörmət edilməlidir"




Qərbi Azərbaycan İcması sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən oktyabrın 9-da Varşavada, ATƏT-in İnsan Ölçüsü Konfransının plenar sessiyasında çıxış edib.

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasının Mətbuat xidmətindən məlumat verilib.

Öz şəxsi qaçqınlıq hekayəsi, Ermənistandan azərbaycanlıların qovulması, onların qayıdışına imkan verilməməsi barədə məlumat verən R.Həsən bəzi dairələrin Azərbaycandan könüllü köçmüş ermənilərin məsələsini süni şəkildə gündəliyə gətirdiyi halda, qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı hüququna münasibətdə ayrı-seçkilik nümayiş etdirdiklərini bildirib. O, ədalət və barışığa nail olmaq üçün qərbi azərbaycanlıların qayıdışı hüququna hörmət edilməsinin vacibliyini vurğulayıb.

R.Həsən konfrans çərçivəsində bir sıra işgüzar görüşlər keçirib.

Qeyd edək ki, ATƏT-in illik əsasda keçirdiyi İnsan Ölçüsü Konfransı ATƏT məkanında insan hüquqları və fundamental azadlıqlar məsələsinə həsr edilir. Qərbi Azərbaycan İcması müntəzəm olaraq bu konfranslara qatılaraq, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsini qaldırır. İcmanın builki konfrans çərçivəsində keçirdiyi yan tədbir və plenar sessiyada iştirakı qərbi azərbaycanlıların qayıdış hüququ üzrə beynəlxalq məlumatlılığın artırılması baxımından böyük əhəmiyyət kəsb edir.

# Dövlət Statistika Komitəsi ilə SESRIC arasında əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib

Oktyabrın 9-da Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin (SESRIC) Baş direktoru xanım Zehra Zümrüt Selçuk ilə görüşüb.

Görüşdə son illər ərzində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə SESRİC arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olunaraq, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə İslam Əməkdaşlıq Təşkilatının İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" ilə iki qurum arasında əməkdaşlığın yeni istiqamətlərinin müəyyən olunduğu qeyd edilib.

Vurğulanıb ki, memorandumun icrası Azərbaycan Respublikasının rəsmi statistika sisteminin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsinə, statistik məlumatların mübadiləsi, təlim səfərləri və seminarlar vasitəsilə statistik potensialın artırılmasına, əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verməkdədir.

SESRIC-in Baş direktoru xanım Zehra Zümrüt Selçuk səmimi görüşə görə Tahir Budaqova öz təşəkkürünü bildirərək, Dövlət Statistika Komitəsi ilə əməkdaşlığın bütün istiqamətləri üzrə müsbət nəticələrin əldə olunduğunu, SESRIC tərəfindən təşkil olunan tədbirlərdə komitənin aktiv fəaliyyətindən məmnunluğunu ifadə edib, sözügedən memorandum çərçivəsində bundan sonra da müvafiq zəruri tədbirlərin görüləcəyini diqqətə çatdırıb.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*



# Şuşada İslam Dünyası İrs Komitəsinin 12-ci iclası keçirilib

İslam dünyasının mədəniyyət paytaxtı Şuşada ICESCO-nun İslam Dünyası İrs Komitəsinin 12-ci sessiyası keçirilib.



Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Şuşaya gələn qonaqlar əvvəlcə mədəni irs yerlərinə ekskursiya ediblər.

Tədbirdə çıxış edən Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov qonaqları salamlayıb və komitənin işinə uğurlar arzulayıb.

Sonra ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin tədbir iştirakçılarına müraciəti oxunub.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında Azərbaycanın mədəni irsi və bu irsin qorunması naminə həyata keçirilən dövlət siyasəti haqqında ətraflı məlumat verib. Ölkəmizin zəngin tarixi-mədəni irsində Qarabağ irsinin xüsusi yer tutduğunu deyən S.Yusifova işğal dövründə dağıdılmış abidələrə dair statistik məlumatları paylaşaraq, mədəni mühitin və irsin canlandırılması üçün hazırda davam edən bərpa-quruculuq işləri haqqında danışıb. Bununla yanaşı, təbii irsin qorunmasının vacibliyini vurğulayan nazir müavini Mədəniyyət Nazirliyinin COP29 çərçivəsində planlaşdırdığı beynəlxalq tədbirlər və yeni təşəbbüslər haqda danışıb. Komitənin sədri, Səudiyyə Ərəbistanının təmsilçisi Alayidarus Muhammed yüksək səviyyədə təşkilatçılığa görə ev sahibi Azərbaycana təşəkkürünü bildirib və sessiyanın gündəliyi barədə məlumat verib.

Açılış sessiyasının sonunda Şuşa Şəhəri Dövlət Qoruğuna həsr olunmuş xüsusi təqdimat izlənilib.

Daha sonra komitənin üzvləri xatirə fotosu çəkdiriblər. Fasilədən sonra keçirilən birinci sessiyada İslam Dünyası İrs Mərkəzinin direktoru Vebber Ndoro tərəfindən mərkəzin konsepsiyası, növbəti iki ili əhatə edən prioritetləri təqdim olunub. Təqdimata dair Azərbaycan, Burkino Faso, Qətər, Fələstin və digər ölkələrin təklifləri müzakirə edilib. Ekspertlər şurasında ölkəmizi təmsil edən Rizvan Bayramovun çıxışında komitə tərəfindən islam ölkələrində mövcud olan qeyri-islam irsi, eləcə də qeyri-islam ölkələrində mövcud islam irsinin müvafiq siyahıyaalma mexanizmləri üzrə işin təkmilləşdirilməsi təklif olunub.

İkinci sessiyada isə 2024-cü ildə həyata keçirilmiş layihələr üzrə hesabatlara baxılıb, komitə üzvlərinin təklifləri müzakirə edilib.

# COP29 "yaşıl zona" üzrə media akkreditasiyası portalı istifadəyə verilib

COP29 Azərbaycan Əməliyyat Şirkəti COP29 iqlim konfransı çərçivəsində fəaliyyət göstərəcək "yaşıl zona" üzrə media akkreditasiya portalını istifadəyə verib.

AZƏRTAC xəbər verir ki, bu ilin 11-22 noyabr tarixlərində ölkəmizin evsahibliyi edəcəyi COP29 iqlim konfransı çərçivəsində COP29 sədrliyi tərəfindən təşkil və idarə ediləcək, iqlim dəyişmələrinə qarşı mübarizə üzrə innovasiyalar və potensial həllər üzrə dinamik mərkəz olacaq "yaşıl zona"ya media nümayəndələrinin akkreditasiyası açıq elan edilib. Akkreditasiya prosesi yeganə rəsmi mənbə olan akkreditasiya portalı vasitəsilə oktyabrın 9-dan etibarən fəaliyyət göstərir, son qeydiyyat tarixi isə oktyabrın 30-u saat 23:00 (GMT+4) olaraq təyin edilib. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası tərəfindən idarə edilən, rəsmi görüş və danışıqların məkanı olan "mavi zona" ilə yanaşı, "yaşıl zona" müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və "mavi zona" nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasına malik olmaqla iqlim konfransının işıqlandırılması üçün media nümayəndələrinə geniş imkanlar təmin edəcək. Belə ki, "yaşıl zona" üzrə akkreditasiyadan keçən jurnalistlər bir sıra müxtəlif tədbirlərə qatılmaq, iqlim fəaliyyətində aktiv iştirak edən qurum, şirkət və simalarla birbaşa əlaqə yaradaraq eksklüziv kontentlə çıxış etmək imkanı qazanacaqlar.




Akkreditə olunmuş media nümayəndələri, həmçinin "yaşıl zona"da media fəaliyyətinin operativ və səmərəli təşkili üçün qurulan Media Mərkəzi və müvafiq digər infrastruktur və texniki imkanlardan yararlana biləcəklər.

Qeyd edək ki, media akkreditasiyası Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən tanınan ölkələrdə media təşkilatı kimi qeydiyyatdan keçmiş rəsmi və etibarlı media qurumunu təmsil edən media nümayəndələri üçün nəzərdə tutulub. Yerli media nümayəndələri həmçinin Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin reyestrində qeydiyyatda olmalıdırlar.

COP29 "yaşıl zona" üzrə media akkreditasiyası prosesi ilə bağlı tələblər və digər ətraflı məlumatın əldə edilməsi üçün COP29 rəsmi veb-saytında mövcud müvafiq bölməyə keçid edilə bilər. Akkreditasiya müraciətləri ilə bağlı əlavə dəstək və ya sorğularla bağlı **mediaaccreditation@cop29.az** elektron ünvanı vasitəsilə əlaqə saxlanılması xahiş olunur.

# Mariya Zaxarova COP29 ərəfəsində ABŞ-nin Azərbaycana təzyiqini "klassik taktika" adlandırıb

"Qərb ölkələri iqlim dəyişmələri mövzusundan siyasi rıçaq kimi istifadə edirlər, lakin Azərbaycana təzyiq etmək əbəsdir".

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib.

Onun sözlərinə görə, hər il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının növbəti Tərəflər Konfransı ərəfəsində Vaşinqton sədrlik edən dövlətə təzyiqi artırır. "Bu, klassik taktikadır. Biz bunu 2022-ci ildə Şarm Əl-Şeyxdəki Tərəflər Konfransı ərəfəsində müşahidə etmişik. Həmin vəziyyət keçən il Dubayda da baş vermişdi. İndi biz uydurma bəhanə ilə Azərbaycana təzyiqin necə artdığını müşahidə edirik", - deyə diplomat qeyd edib.



"Azərbaycana təzyiq etmək əbəsdir. Müxtəlif məsələlərlə bağlı Azərbaycana dəfələrlə təzyiqlər göstərilib. Söhbət təkcə suveren dövlətlərə təzyiqin yolverilməzliyi ilə bağlı prinsipial mövqedən getmir, həm də ondan gedir ki, bu mövzu real olaraq mütəxəssislərin cəlb olunmasını tələb edir. Bu, ABŞ-nin, sadəcə olaraq, özünə faydalı olan bir qərarı qəbul etdirmək məqsədilə hər kəsin başına vuracağı növbəti bir siyasi "dəyənək" olmamalıdır. Ortaya atılmış bu cür xəbərlərdən iqlim dəyişmələri ilə bağlı populyar mövzu ətrafında süni şəkildə ajiotaj yaratmaq üçün istifadə olunur", - deyə Rusiya XİN-in rəsmi nümayəndəsi bildirib.

Zaxarovanın fikrincə, reallıqda ABŞ və Qərb ölkələri iqlimin maliyyələşdirilməsi sahəsində yeni kollektiv kəmiyyət məqsədinə dair razılaşmanı, həmçinin beynəlxalq karbon vahidləri bazarının yaradılması məsələsi üzrə konsensusa nail olunmasını faktiki olaraq sabotaj edirlər.

## ZƏFƏR gündəliyi
## 10 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "Azərbaycan axıra qədər gedəcək"

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusunun "dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatı uğurla davam edib. Müharibənin 14-cü günü düşmənə sarsıdıcı zərbələr endirilib.

### Düşmənin 13 tankı, 15 artilleriya qurğusu məhv edilib

Azərbaycan Ordusunun hücum əməliyyatı nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi, 13 tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib.

### Hadrut, Goranboy, Tərtər, Ağdam atəşə məruz qalıb

Düşmən Xocalı istiqamətindən Hadrutu yaylım atəşli reaktiv sistemlərdən intensiv atəşə tutub. Həmçinin Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının yaşayış məntəqələri düşmən tərəfdən atəşə məruz qalıb. Ordumuz Ermənistan silahlı qüvvələrinə qarşı adekvat tədbirlər görüb.

Düşmənin ağır döyüş texnikaları bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

### Məhv edilən 9K72 "Elbrus" raket kompleksinin qalıqları aşkarlanıb

Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan, lakin Azərbaycan hava hücumundan müdafiə sistemləri tərəfindən müəyyənləşdirilib məhv edilən 9K72 "Elbrus" əməliyyat-taktiki raket kompleksinin vurulmasından sonra yerə dağılan qalıqları aşkarlanıb.

### Düşmən atəşkəs razılaşmasını pozub



Tərəflər arasında saat 12:00-da atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq, Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Eyni zamanda bir sıra yaşayış məntəqəmiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalıb.

Düşmənin bütün hücum cəhdlərinin qarşısı bölmələrimiz tərəfindən uğurla alınıb. Ermənistan ordusuna qarşı adekvat cavab tədbirləri görülüb.

Atəşkəs rejimini pozan düşmənin zirehli texnikası, artilleriya bölməsi, həmçinin atəş nöqtələrinə çıxardığı ağır artilleriyası, döyüşə hazır vəziyyətə gətirilən zenit-raket kompleksləri dəqiq zərbələrlə məhv edilib.

### İlham ƏLİYEV: "Biz öz bəyanatlarımıza sadiqik"

Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib. Dövlət başçısı tərəflər arasında atəşkəsin elan olunması məsələsinə aydınlıq gətirərək deyib: "Biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Danışıqlar aparılması üçün sabaha razılıq verilib. Buna görə hər şey ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır".

Prezident qətiyyətlə vurğulayıb ki, əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Amma Azərbaycan axıra qədər gedəcək.

Ali Baş Komandan bir daha Ermənistan rəhbərliyinə səslənərək deyib ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Paşinyan Azərbaycana 7 ultimatum təqdim edəndə, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və bu gün Azərbaycan bunu reallaşdırır.

### Atəşkəsi pozan düşmənə sarsıdıcı zərbələr endirilib



Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində hücum etməyə cəhd göstərib.

Düşmən günorta saatlarında Tuğ kəndi istiqamətindən Hadrut istiqamətinə, Aragül və Banazur istiqamətlərindən isə Cəbrayıl istiqamətinə hücum etməyə çalışıb.

Bölmələrimizin gördüyü qabaqlayıcı tədbirlər nəticəsində xeyli canlı qüvvə və döyüş texnikasını itirən düşmən geri çəkilməyə məcbur olub. Müdafiəni düzgün təşkil edən bölmələrimiz düşmənin irəliləməsinin qarşısını alıb, onu tələyə salaraq darmadağın edib. Döyüş toqquşması nəticəsində düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını məhv edilib.

Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Ağdamın kəndlərini və saat 22:30-dan başlayaraq Tərtər şəhərini artilleriya atəşinə tutub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# ZAURUN SOLAN GÜLBƏNİZİ

## Polkovnik-leytenant Zaur Cəfərovun ömür yolunun məşəqqətli köçkünlük, şərəfli hərbçilik, qürurlu şəhidlik məqamları



◆ **Zəriflərin dünyası**



**"Həsən bilsə də, Səlbiylə Zəhra atalarının şəhidliyindən hələ xəbərsiz idilər. Günlərlə onların atalarının harada olması barədə verdikləri aramsız suallardan qaçmağa, atalarının şəhid olduğunu onlardan gizlətməyə çalışdım. Amma nə vaxta qədər gizlədəcəkdim?! Nə zamana qədər onların gözləri qapıda qalacaqdı?!.**

**Zaurun "qırx"ı çıxandan sonra bir gün cəsarətimi toplayaraq uşaqları da götürüb getdim onun məzarına...**

**O anı görmək də, yaşamaq da dəhşət idi... Ayrı vaxtı balalarımızın gözlərindən bir damla yaş axmaması üçün dünyanı dağıtmağa hazır olduğumuz halda, indi onların məzar daşına sarılaraq fəryad qoparmalarına dözürdük...**

**Biz valideynləri çarəsizcə onları seyr edirdik - mən yerdən, atasının ruhu isə göydən..."**

### Əzablı illər

Kəlbəcərin Başlıbel kəndindən idi ikisi də...

1993-cü ilin aprelində Zaur 13, Gülbəniz isə cəmi 2 yaşı olanda doğma yurdlarından didərgin düşmüşdülər.

Kəlbəcərin sərt iqliminə bələd olanlar bilirlər ki, buranın apreli də qış kimi keçir. Şaxtası ilikləri donduran belə bir havada ailələri ilə birlikdə çovğunlu Murovun sərt və qarlı aşırımlarını pay-piyada, zülmlə keçə bilsələr də, bu, onların əksər qohumlarına nəsib olmamışdı.



Birinci Qarabağ müharibəsində bir neçə qohumu, eləcə də bibisi oğlu tankçı Yalçın Mustafayev şəhid olan Zaurun digər onlarla qohumu da Kəlbəcərin işğalı zamanı ermənilər tərəfindən mühasirəyə alınaraq 113 gün boyu ağır günlər yaşamışdılar. Onların çoxu ermənilərə dirəniş göstərərkən qətlə yetirilmiş, bir neçə nəfəri qarlı yollarda şəhid olmuş, digərləri isə girov götürülmüşdü.

1993-cü ildə Başlıbeldə erməni mühasirəsində qalaraq kahalara sığınanlar arasında Gülbənizin də qohumları az deyildi. 18 aprel Başlıbel qətliamında xalası Büsat və onun körpə balası Zövqiyyə də şəhid olmuşdu, iki əmisi girov götürülmüşdü...

Beləcə, 30 ilin o üzündəki məşum aprel ayında uşaqların hərəsi ölkənin bir bölgəsində məcburi köçkünlüyün ağrı-acılı, məşəqqətli illərinə qədəm qoymuşdular.

Erməni vəhşiliyinə elə uşaq yaşlarından şahid olması Zaurun gələcək həyat yoluna və arzularına da yön vermişdi. Hərbçi olacağına, torpaqlarımızı işğaldan azad edəcəyinə, elobasının, doğmalarının qisasını alacağına and içmişdi...

### "Tale üzümüzü gülməyə qoymadı"

Tale Zaurla Gülbənizin yollarını Kəlbəcərdə yox, məcburi köçkün kimi Azərbaycanın başqa bir diyarında çarpazlaşdırmışdı. Bir gün gənc Zaur valideynlərinə qohumlarının qızı olan Gülbənizlə ömür yolunu birləşdirmək istəyini açmışdır. Oğullarının bu seçimi ata-anasını çox sevindirmişdi. Eləcə də Gülbənizin valideynləri bu izdivaca məmnunluqla "hə" demişdilər. Dərhal hazırlıqlar başlanmış, 2008-ci ilin iyulunda onlara toy çalınmışdı. Gənclər ailə səadətinə qovuşmuş, ana-ata olmağın xoşbəxtliyini yaşamışdılar. Tanrı onlara bir oğul, iki qız payı vermiş, adlarını Həsən, Səlbi, Zəhra qoymuşdular.

"İkimiz də uşaq yaşlarımızdan çox ağır günlərə tuş gəldik, məcburi köçkünlük həyatı yaşadıq. Hər kəs bilir, hərbçi həyatı necə çətin olur. Zaur ölkəmizin bir çox rayonlarında xidməti vəzifədə oldu, biz də onunla bərabər həmin yerlərdə kirayələrdə yaşadıq. Çətinlikləri birlikdə aşdıq, elə təzə-təzə özümüzə gəlib bir yerə çıxmaq istəyirdik ki, fələk üzümüzü gülməyə qoymadı. Zaur üç balasını da, məni də ağlar qoyub getdi..."

"Zəriflərin dünyası"nda şəhid polkovnik-leytenant Zaur Cəfərovun ömür-gün yoldaşı Gülbəniz Cəfərova ilə birlikdə qəhrəman şəhidimizin döyüş gündəliyini vərəqləyir, acılı-şirinli həyat yoluna nəzər salırıq...

### "Ağır artilleriyanın atası"

Zaur Hüseyn oğlu Cəfərov 1980-ci il martın 4-də Kəlbəcər rayonunun Başlıbel kəndində ziyalı ailəsində dünyaya göz açıb. İbtidai təhsilinə 1986-cı il şəhid Namiq Əbdüləliyev adına Başlıbel kənd orta məktəbində başlayıb. 1993-cü ildə Kəlbəcərin işğal olunması nəticəsində məcburi olaraq ailəsi ilə birlikdə əvvəlcə Qax rayonuna, sonra isə Bakıya köçüb. Orta təhsilini 1997-ci ildə Qaradağ rayonu Qızıldaş qəsəbəsində şəhid Azər Namazovun adını daşıyan orta məktəbdə başa vurub.

Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan Zaur Cəfərov hərbi təhsilini 2001-ci ildə leytenant rütbəsi ilə bitirib. Ali Hərbi Məktəbi bitirərkən Dövlət Attestasiya Komissiyasının qərarı ilə ona "Raket qoşunlarının artilleriya və raket artilleriya qoşunlarının döyüş fəaliyyətinin idarə edilməsi, operativ-taktiki, taktiki-raket, yerüstü artilleriya və sahil raket artilleriya silahlarının döyüş tətbiqi, yerüstü artilleriyanın taktiki komandanlığı" ali peşə istiqaməti üzrə bakalavr dərəcəsi verilib. Xidmətinin böyük hissəsi Naxçıvanda - Əlahiddə Ümumqoşun Ordu Korpusunda keçib.

Zaur Cəfərov 2014-cü ildə imtahan verərək magistratura səviyyəsi üzrə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil olub. Silahlı Qüvvələrin Hərbi Akademiyasının İxtisaslaşdırılmış elmi şurasının qərarı ilə ona 2016-cı ildə "Hərbi və dövlət müdafiəsini idarəetmə" ixtisasının "Hərbi idarəetmə (əməliyyat-taktiki səviyyə) ixtisaslaşması üzrə magistr elmi-ixtisas dərəcəsi verilib. Təhsilini bitirdikdən sonra polkovnik-leytenant rütbəsinə yüksəlib və xidmətini birinci ordu korpusunda davam etdirib. Nümunəvi xidmətinə görə qısa müddət ərzində diviziya komandiri vəzifəsindən hərbi hissənin qərargah rəisi vəzifəsinə qədər yüksəlib. Komandir yoldaşları hər zaman ona "Ağır artilleriyanın atası" deyərmişlər.

Polkovnik-leytenant 2016-cı il Aprel döyüşləri və 2020-ci il Tovuz döyüşlərində öz əsgərləri ilə birgə rəşadətlə vuruşub.



Zaur Cəfərov 2020-ci il Vətən müharibəsində qəhrəmanlıqla döyüşüb. O, düşmənin döyüş meydanında qoyub qaçdığı texnikanı dəfələrlə özü idarə edərək qənimət kimi gətirib. İgid komandirin Madagiz-Ağdərə istiqamətində rəhbərliyi ilə keçirilən hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb. Həmçinin Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib. Oktyabrın 3-də Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin və Murov dağ silsiləsinin işğalçılardan azad olunmasında müstəsna xidməti olub.

Polkovnik-leytenant 2020-ci il oktyabrın 9-dan 10-na keçən gecə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısını alarkən sərəncamında olan minik avtomobili ilə minaya düşərək qəhrəmancasına şəhid olub.

Zaur Cəfərov xidməti vəzifədə olarkən "Qüsursuz xidmətə görə" 1-ci, 2-ci, 3-cü dərəcəli medalları, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" yubiley və "İgidliyə görə" medallarına layiq görülüb.

Polkovnik-leytenant Vətən müharibəsində hərbi vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə ölümündən sonra Prezidentin sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları, "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib.



2020-ci il oktyabrın 19-da polkovnik-leytenant Zaur Cəfərovun nəşi II Şəhidlər xiyabanında torpağa tapşırılıb.

### Elə bil ürəyinə nəsə dammışdı...

Gülbəniz xanım danışır ki, hərbçi olduğu üçün xarakterində müəyyən qədər sərtlik olsa da, Zaur Cəfərov ümumilikdə çox mehriban, ürəyiyumuşaq insan olub. Onların ailədə bir-birilərinə olan sevgiləri, hörmətləri hər kəs üçün nümunə göstərilib.

- Zaur o qədər mehriban, mərd, sadə insan idi ki, bu günə qədər də hər kəs onun mərhəmətindən, xeyirxahlığından danışır. Əsgərləri deyirlər ki, o bizimlə elə sadə rəftar edirdi ki, heç inanmırdıq ki, qərargah rəisidir, o boyda rütbənin sahibidir...

Polad Həşimovla İlqar Mirzəyevin şəhidlik xəbəri Zaura çox pis təsir eləmişdi. O, Naxçıvanda, Goranda İlqar Mirzəyevlə bir yerdə xidmətdə olmuşdu, Aprel döyüşlərində birlikdə vuruşmuşdular. Buna görə heç rahat ola bilmirdi, elə hey onların qisasını alacağını deyirdi. Ümumiyyətlə, uşaq yaşlarından onda düşmənə nifrət yaranmışdı, intiqam hissi ilə yaşayırdı.

Zaur ailəsinə qarşı da çox həssas, qayğıkeş idi. Bizə korluq verməzdi, kirayə də olsa qaldığımız evlərdə hər cür şərait yaradardı. Nə qədər yorğun olsa da, axşam gələndə uşaqları yığardı başına, maraqlanardı ki, nə iş görüblər, nə oxuyublar, nə öyrəniblər? Ad günlərimizin, özəl günlərimizin birini də ötürməz, mütləq xüsusi sürprizlər edərdi. Özü gəlməsə belə hədiyyəmizi göndərərdi. 2020-ci il avqustun 20-də doğum günüm idi. Həmin zaman Goran qəsəbəsində qalırdıq. Cəbhədə vəziyyət gərgin olduğu üçün inanmırdım ki, o, ad günümə gələr. Qəfil qapı döyüldü və qapını açanda qarşımda Zauru görüb həm təəccübləndim, həm də çox sevindim. Mənə hədiyyə almışdı, tortu da bir yerdə kəsdik, şəkil çəkdirdik. Birlikdə olduğumuz ən şirin, ən xoşbəxt, ən sevincli son günümüzü yaşadığımızdan xəbərsiz...

Son zamanlar elə bil Zaurun ürəyinə nəsə dammışdı. Çünki istər Naxçıvanda, istər digər yerlərdə xidmətdə olarkən məzuniyyətləri olmuşdu, amma mən onu heç zaman 2020-ci ilin sentyabrın əvvəlində bir neçə günlük məzuniyyətindəki kimi görməmişdim. Elə bil tamam fərqli adam olmuşdu. Bütün gününü bizimlə keçirirdi, uşaqlarla deyib gülürdü, oynayırdı. Bir gün hamımızı parka apardı. Heç şəkil, video çəkdirməyi xoşlamazdı, amma nədənsə həmin gün telefonu mənə verdi ki, "uşaqların əlindən tutub uzaqdan gələcəm, bizi videoya çək".



O an elə bil ürəyimdə nə isə qırıldı. Amma tez öz-özümə dedim ki, heç vaxt belə şey ola bilməz. Çünki Zaur çətin döyüşlərdən dəfələrlə salamat qayıtmışdı... Bəlkə də bununla o bizi çox arxayın salmışdı deyə, ayrılıq heç ağlıma gəlməmişdi, bilmirəm...

### Son dəfə oğlu ilə görüşdü...

- Zaur hərbi sirləri heç zaman evdə danışmadığı üçün Aprel döyüşlərində iştirak edəndə də mənə bildirməmişdi. Sonradan xəbər tutmuşdum. Amma Tovuz döyüşləri zamanı hərbi texnikaların qaldığımız "N" saylı hərbi hissənin şəhərciyindən çıxması indi də gözümün önündədir. Zauru böyük nigarançılıq, təşviş, qorxu içərisində, göz yaşlarıyla döyüşə yola salmışdım. Hər zəng gələndə, qapı döyüləndə sanki ürəyim düşürdü.

O neçə günü səhərdən axşamacan uşaqlarla bir yerdə əl açıb dua edirdik ki, Zaur salamat qayıtsın. Aprel döyüşlərində də, Tovuz döyüşlərində də Allah onu bizə, balalarına bağışladı, geri qaytardı...

Amma Vətən müharibəsində yox...



2020-ci il oktyabrın 8-nə qədər gündə bir dəfə də olsa telefonla Zaurla danışırdıq. Danışa bilməyəndə də harada olsa imkan tapıb mesaj yazırdı ki, narahat olmayaq. Torpaqlarımız işğaldan qurtulduqca, ordumuz irəlilədikcə o elə qürurlanırdı ki... Mən həyatımda Zauru bu qədər sevincli görməmişdim. Ona deyəndə ki, özündən muğayat ol, gülürdü, deyirdi ki, "düşmən mənə heç nə edə bilməz, onlar mənimlə bacarmazlar!.."

Oktyabrın 6-da nəyəsə görə dedi ki, Həsəni görmək istəyirəm, onu yanıma göndərərsiniz. Təkid etdim ki, "qoy biz də qızlarla gəlib səninlə görüşək", dedi, yox, "bircə Həsən gəlsin..."



Dayısı ilə əmisi Həsəni atasının görüşünə apardılar. Zaur Həsənə deyib ki, "evin kişisi sənsən, anana, bacılarına, nənənə həyan ol". Onlarla evə bir formasını da yuyulmağa göndərmişdi. Həmin formanı yudum, amma bir daha geyinmək özünə qismət olmadı...

Minaya düşdüyü üçün onun bütün paltarları, əşyaları, telefonu da ələ gəlmədi...

Şəhidliyindən bir neçə gün əvvəl idi, zəng vurub tapşırdı ki, qurban kəsib paylayaq. Dedim ki, "mən də sənə qurban demişəm, özün gələndə ikisini də kəsdirərik", amma o, etiraz elədi ki, yox, "indi kəsdir..."

Ard-arda baş verən bütün bu hadisələr təbii ki, məni çox narahat edirdi, amma yenə ağlıma qara fikir gətirmirdim. Həmin günlərin birində səhər Həsən dedi ki, "yuxuda atamı görmüşəm, sinəsinə gerb, bayraq taxmışdılar..."

Dedim ki, "yəqin atanın rütbəsini qaldıracaqlar, həm də o, torpaqlarımız işğaldan azad edildikcə sevinir..." Nə biləydim ki...

Oktyabrın 9-dan 10-a keçən gecə Zaura nə qədər zəng vurdum, mesaj yazdım çatmadı. Haray elədim ki, "Zaura zəng çatmır..."

Bir neçə gün sonra anasıgilə Zaurgilin itkin düşmələri barədə məlumat vermişdilər. DNK analizi götürmüşdülər. Amma inanmırdım ki, Zaura nəsə olar. Ümidlə onun sağ-salamat olması xəbərini gözləyirdim. Haradasa ayın 13-ü olardı, yuxuda gördüm ki, o, mülki paltarda bir çayın kənarındadır. Ayaqlarının altında da hər cür gül-çiçək var. Durub yuxumu qohumlara danışdım. Demə onlar Zaurun şəhid olduğunu artıq bilirmişlər, mənə demirmişlər...

### "Öz gözlərimi Səlbiyə vermək istəyirəm, amma..."

Gülbəniz xanım deyir ki, dörd il ötüb, amma hələ də uşaqları ovuda bilmir. Övladları atalarının şəhidliyini bilsələr də, yoxluğunu qəbullanmırlar. Hər qapı döyüləndə, atalarının maşınına oxşar maşın görəndə... gözləri dörd olur.

- Hərdən Səlbi gecə durub dəhlizdə gəzir. Soruşuram ki, "Səlbi, nə axtarırsan?" Deyir ki, "atam evə gəlmişdi, burdaydı. Əlimi uzadıb ondan yapışmaq istədim, yoxa çıxdı..."



Zaurun balalarının üçü də özü kimi qürurludur. Məni ağlayan görəndə oğlum böyük kişi kimi təskinlik verir ki, "ana, qürurlan ki, o cür vətənpərvər zabitin həyat yoldaşısan", "Biz atamı yaşatmalıyıq..." Ancaq öz göz yaşlarını məndən gizlədir... Dəfələrlə olur, səhərlər baxıram ki, uşaqların balışları yaşdır... Amma ağladıqlarını bildirməməyə çalışırlar...

Həsənin və Səlbinin ən kəskin həddə anadangəlmə görmə məhdudiyyəti var. Həsənin bir gözü, Səlbinin isə hər iki gözü görmür. 4 yaşından Səlbini müalicə üçün hara aparsaq da, çarəsi olmadı. Mən öz gözlərimi ona vermək istəyirəm, amma təəssüf ki, bu da dərdimizə dəva deyil.

Səlbi böyrək çatışmazlığından da əziyyət çəkir. Keçən ilin yayında onun vəziyyəti ağırlaşdı. O, YAŞAT Fondu tərəfindən Yeni Klinikaya yerləşdirildi və bir ay yarım orada qalaraq müalicə olundu və evə buraxıldı.

İndi həftənin üç günü Səlbini dializə aparıram, səhərdən axşama qədər xəstəxanada oluruq. Digər günlər də onun analizləri, müayinələri keçirilir. Hələlik ona böyrək köçürmək də mümkün deyil...

Bütün bu əzablara görə bir yana baxanda deyirəm, "kaş atası yanımızda olaydı". Xəstəxanaya, harasa aparanda 13 yaşlı uşağı qucağıma götürüb maşına qoyuram, düşürürəm. Öz-özümə deyirəm ki, Zaur yanımda olanda bir dəfə mən qucağıma götürəndə bir dəfə də o götürərdi... Amma digər yandan da deyirəm ki, "yaxşı ki bu çətinlikləri görmür, o, balalarıyla nəfəs alırdı..."

Zaur çox imanlı idi, namazını, orucunu bir dəfə də ötürməzdi. Özü də seyid nəslindəndir. Övladları da özü kimi imanlıdırlar. Onun yarımçıq qalmış namazını indi Səlbi davam etdirir...



İndi günümüzün çoxu məzarlıqda keçir. Bəzən düşünürəm ki, travmalı uşaqlardır, qoy bir az ara verim, aparmayım məzarlığa. Amma ağlayırlar ki, "ana, apar bizi atamızın yanına". Məcbur olub aparıram. Onda üçü də başlarını atalarının şəkli həkk olunmuş daşa söykəyib elə hönkürürlər, ağlaya-ağlaya ataları ilə elə "danışır"lar ki, baxanda ürəyim parçalanır... Qaranlıq düşür, amma mən uşaqları atalarının qəbrindən qoparıb evə gətirə bilmirəm...

### "Mən şəhid Zaurun Səlbi qızıyam"

Qəhrəman şəhidin həyat yoldaşı söyləyir ki, arzusu uşaqlarının sağalması, onları atalarının istədiyi kimi böyütməkdir. 15 yaşlı Həsənlə 13 yaşlı Səlbi 5 nömrəli gözdən əlillər məktəbində oxuyurlar. Həsən böyüyəndə hüquqşünas, 9 yaşlı Zəhra isə müəllim olmaq istəyir. Səlbi də çox istedadlıdır. Gözəl şeir söyləmək qabiliyyəti var...

Səlbinin qəhrəman atasına həsr edilən şeiri necə yanğı ilə söyləməsi ilə bağlı sosial mediada paylaşılan videoya baxan hər kəs qəhərlənir...

*Bilirsən, ay ata, mən də səninçün,*
*Qürurla dayanıb deyəcəm şeir.*
*Mən şəhid Zaurun Səlbi qızıyam,*
*Qoy bütün bu dünya eyləsin seyr...*

- Zaur Vətən yolunda canından, ailəsindən, üç körpə övladından keçdi. Onun qəhrəmanlığı başımızın tacıdır. Arzumdur ki, bir daha müharibə olmasın, biz çəkdiyimizi kimsə çəkməsin... Analar gözüyaşlı, yoldaşlar boynubükük, balaların isə gözləri qapıda qalmasın.



Bu yaxınlarda Qarabağa getdik. O torpağa ayaq basanda şükür etdim. Suqovuşanda oldum, uzaqdan da olsa Zaurun şəhid olduğu yeri gördüm. O torpaqların hər qarışı ziyarətgahdır, hər qarışında qan damlası var, bir cavan həyatını itirib... Zaur bu günləri görməyin həsrəti ilə yaşayırdı. Həmişə deyirdi ki, "qayıdacağıq öz torpaqlarımıza, illərin həsrəti bitəcək, şəhidlərimizin qisası alınacaq". Özünə qismət olmasa da, övladları Kəlbəcərə, Başlıbelə dönüb onun arzularını yaşadacaqlar.

### Zaur yanımda olsaydı...

Torpaqlarımızın azadlığı uğrunda çox qəhrəman oğullarımız özünü fəda etdi. Çox ailələrə şəhid atəşi düşdü, çox ailələr başsız qaldı. Çox uşaqlar, körpələr ata üzünə həsrət qaldı. Ataları şəhid olandan sonra ata hənirinin nə olduğunu heç zaman duya bilməyəcək körpələr doğuldu...






Amma Cəfərovlar ailəsinin də faciəsi tamam başqa, tamam ayrı oldu. Həyatının bahar çağında ömür-gün yoldaşını itirən bir gənc qadın taleyin onun üçün cızdığı ağır işgəncəyə dönən həyat yolu ilə irəliləməyə məhkum oldu. Cavan yaşında bir saçını ağ, bir saçını qara hörən Gülbəniz bundan sonra yalnız Zaurun ona əmanət olan üç övladını böyütmək üçün yaşamağa çalışır. Zalım fələk bir tərəfdən də bu zərif xanımın çiyinlərinə dağdan ağır yük qoyub, ürəyinə gözləri həyat işığına həsrət, hər anı ölüm təhlükəsi qarşısında olan övladı Səlbinin zillətinin, ağrı-acısının da dağını çəkib.





***- Payızı heç sevmirəm. Bu "ağlar" fəsil Zauru əlimizdən aldı. Hərdən düşünürəm ki, bu fəsildə yağan yağış deyil, bizim göz yaşlarımızdır dünyanı bürüyür...***



***Bir ana üçün gözünün qabağında övladının acı çəkməsindən böyük dağ yoxdur. Yediyim yemək də, içdiyim su da zəhərdir mənə...***

***Kaş Zaur yanımızda olaydı, balamızı birlikdə qoruyaydıq...***

***Mənim də çiynimi söykəyəcəyim arxa-dayağım olardı, bir az ürəkli, toxtaq olardım...***

***Amma...***

***Yasəmən MUSAYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "ABŞ-nin Azərbaycana münasibəti ikili standartlarla dolu və qeyri-səmimidir"



"ABŞ faktiki öz qərarlarına hörmətsizlik göstərərək, onlardan sui-istifadə edərək Azərbaycana qarşı təzyiqə başladı. Dünyanın supergüc dövləti beynəlxalq səviyyədə qəbulolunmaz addım atır".

Bu sözləri amerikalı konqresmenlərin dövlət katibi Entoni Blinkenə müraciətinə cavab olaraq bir qrup azərbaycanlı deputatın xarici işlər naziri Ceyhun Bayramova ünvanlandığı müraciəti AZƏRTAC-a şərh edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib. ABŞ-nin münasibətinin tamamilə ikili standartlarla dolu və qeyri-səmimi olduğunu qeyd edən deputat bildirib ki, tarixən ölkəmizə tətbiq edilən sanksiyalar məntiqsiz və ədalətsiz olub. Halbuki Azərbaycan hər zaman beynəlxalq öhdəliklərini ən yüksək səviyyədə yerinə yetirib.

"Biz Amerika Birləşmiş Ştatlarının maraqlarını ən yüksək səviyyədə ödəmişik. Ancaq təəssüflər olsun ki, onların münasibəti tamamilə ikili standartlarla dolu və qeyri-səmimidir. Bu gün Azərbaycanın xarici siyasəti özünü başqa bir səviyyədə göstərməkdədir. Biz onu da başa düşməliyik ki, bu, Azərbaycana qarşı ilk ədalətsiz qərar deyil, tarixən belə qərarlar hər zaman olub. Nə qədər də faciəvi, dəhşətli görünsə də, faktiki olaraq belə idi. Bizə qarşı Xocalı faciəsini törədirdilər, 1 milyondan çox qaçqın və məcburi köçkün bizdə idi, Qarabağ və ətraf yeddi rayonumuz işğal altında idi, ancaq sanksiyaları bizə tətbiq edirdilər", - deyən S.Seyidov Bakıda keçiriləcək COP29 kimi mötəbər tədbir ərəfəsində Azərbaycana qarşı atılan bu addımı səciyyələndirən önəmli xüsusiyyətin olduğunu söyləyib. Deyib ki, belə görünür, Amerika bu yüksəksəviyyəli tədbirdən sui-istifadə edərək Azərbaycana qarşı yenidən təzyiq göstərmək üçün fürsət qazanıb. Belə olan halda Azərbaycan özünü sığortalamalıdır.

"Bir müddət əvvəl ABŞ COP29-la bağlı müsbət rəyini bildirmiş, bu tədbirin Azərbaycanda uğurla keçirilməsi ilə bağlı əlindən gələni əsirgəməyəcəyini bəyan etmişdi. Biz ABŞ-yə bu nöqteyi-nəzərdən inanırdıq. Söhbət dünyanı ən çox narahat edən məsələlərin Azərbaycanda müzakirəsindən gedir. ABŞ-nin belə bir məsələyə müsbət rəy verməsi müsbət qarşılanmışdı. Azərbaycan olaraq ciddi düşünməliyik, nəticə çıxarmalıyıq ki, ABŞ kimi böyük dövlət hansısa müsbət fikir söyləyirsə və sonra bu fikrin arxasında dayana bilmirsə, yaxud dayanmaq istəmirsə, ən faciəvisi verilmiş bu qərarı alətə çevirib ölkəyə təzyiq edirsə, biz milli maraqlarımızı qorumaq, onları yüksək səviyyədə müdafiə etmək, ABŞ-dən bu əlaqələrə yenidən baxılmasını xahiş etmişik".

Biz milli maraqlarımızı qorumaq üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə əlaqələrimizə də yenidən baxmalıyıq".

S.Seyidov hesab edir ki, beynəlxalq səviyyədə qəbulolunmaz davranış sərgiləyən ABŞ-də başa düşməlidirlər ki, bu siyasət onların regionda mövcudluğunun üstündən xətt çəkir və bu davranışdan hər bir ölkə nəticə çıxarmalıdır.

"Sabah bu istiqamətdə hətta Azərbaycana xoş gəlsin deyə qərar verilsə belə düşünməliyik ki, birigün bu qərar geri götürülə bilər, bu qərardan imtina oluna bilər. Axı beynəlxalq əlaqələr sistemində ən əsas məsələ inamdır. Azərbaycan Prezidenti dünyada xüsusi çəkiyə və nüfuza malikdir, dediyi hər sözün arxasında dayanır. Onun sözü imzası qədər güclüdür. İmzası çəkildisə, hamı bilməlidir ki, bu, reallaşacaq. Azərbaycan artıq etibarlı tərəfdaş kimi özünü sübut edib. Əslində, biz bu nümunəni dünyanın supergüc dövlətlərindən görməliyik. Ancaq biz dünyanı idarə edən dövlətlərdən başqa davranış görürük. Görürük ki, söz verir, etmir, imza çəkir, geri götürür. Guya dostluq edir, dostluğun içərisində xəyanət edir", - deyə komitə sədri vurğulayıb.

## ABŞ regionda yeni müharibənin alovlanmasını istəyir

"Prezident İlham Əliyev dövlət rəhbəri kimi fəaliyyətinin bütün dövrlərində sülhün, demokratiyanın, insan azadlığının, dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsinə və münasibətlərin yaxşılaşdırılmasına böyük önəm verib və bu siyasət uğurla davam etdirilir. Beynəlxalq əhəmiyyətli mədəni, humanitar, iqtisadi, siyasi tədbirlərin Azərbaycanda keçirilməsi, rəhbərimizin sülh çağırışları, siyasi gedişlər bunu sübut edir".



Bu fikirləri söyləyən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ölkəmiz torpaqlarının uzun illər Ermənistan tərəfindən işğal olunmasına baxmayaraq, münaqişənin danışıqlar yolu ilə həll edilməsinə çalışıb. Ancaq Hayastan rəhbərliyi və havadarları buna əhəmiyyət vermədikdə Azərbaycan hərb yolunu qaçılmaz hesab edib. 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirləri nəticəsində düşmənin başı əzilib, Qarabağ erməni separatçılarından azad edilib. "İndi işğaldan azad olunmuş ərazilərdə möhtəşəm tikinti, abadlıq, quruculuq işləri həyata keçirilir, erməni təcavüzkarlarının viran qoyduqları şəhər və kəndlərimiz, tarixi, dini, mədəni abidələrimiz bərpa edilir, insanlar öz ata-baba torpaqlarına qayıdırlar. Dünya Azərbaycanda həyata keçirilən tədbirləri görür, sülhsevər dövlətlər uğurlarımızı qiymətləndirir, beynəlxalq əməkdaşlığa, sülhə dəstək verirlər. Ancaq bu uğurları gözü götürməyən, sülh, azadlıq çağırışlarına kölgə salmağa çalışan, təcavüzkar Ermənistanı müdafiə edən, onu silahlandıran ABŞ, Fransa, Hindistan kimi ölkələr Avropa İttifaqı, AŞPA kimi təşkilatlar beynəlxalq normalara tamamilə zidd olaraq ölkəmizə qarşı aqressiv mövqe nümayiş etdirir, öz məkrli əməlləri ilə qələbələrimizə kölgə salmağa çalışırlar. ABŞ rəsmiləri və bu dövlətin konqresi isə bu sahədə nümunədir", - deyə o əlavə edib.

T.Rzayev qeyd edib ki Azərbaycan ABŞ ilə münasibətlərin yaxşılaşdırılmasına daim böyük önəm verib. Ancaq Amerikanın bəzi rəsmiləri, bir çox konqres üzvləri bu münasibətlərə xələl gətirir, dövlətimizə qarşı qərəzçilik edirlər. Bu günlərdə konqresin bir qrup üzvünün dövlət katibi Entoni Blinkenə ünvanladığı məktub bunu bir daha təsdiqləyir. Bu məktub Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyinə qarşı yönəlib və bölgədə gərginliyi artırmağa xidmət edir. Açıq-aydın görünür ki, konqresin üzvləri Ermənistanın mövqeyindən çıxış edir, reallıqları gizlədir, təcavüzkarların maraqlarını güdür, beynəlxalq hüququ pozan məsələləri, hərbi cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin azad edilməsini, sanksiya tətbiq olunmasını, etnik təmizləmə məsələsini gündəmə gətirirlər.

Komitə sədri vurğulayıb ki, bu fikirlər, yalan mülahizələr Ermənistanın oynadığı ikibaşlı oyunların, onun havadarlarının diktələrinin, erməni lobbisinin canfəşanlığının nəticəsidir: "Nikol Paşinyan Fransanın, ABŞ-dəki tərəfdarlarının vədlərinə uyaraq gah sülhdən, gah müharibədən, gah da sanksiyalardan, Azərbaycana təsirlərdən danışır. Onun sözü ilə əməli heç vaxt üst-üstə düşmür. Məhz buna görə də cənab İlham Əliyev bildirib ki, Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Təəssüflər olsun ki, bu oyunda ABŞ rəsmiləri Ermənistanın yanındadırlar. Konqresin tutduğu mövqe ABŞ ilə regionda mühüm müttəfiq olan Azərbaycan arasında münasibətlərin korlanmasına, Cənubi Qafqazda sabitliyin pozulmasına, müharibənin yenidən alovlanmasına, qarşıdurmanın kəskinləşməsinə, sülh müqaviləsinin bağlanmasının qarşısının alınmasına, kütləvi insan təlafatına səbəb ola bilər. Konqres üzvlərinin tutduqları yol ayrı-seçkilik, həqiqətləri tam təhrif etmək, Ermənistanı silahlandırmaq, təcavüzü dəstəkləmək yoludur ki, bu da ciddi narahatlıq doğurur. Ermənistanın geosiyasi şantaj siyasətinin bir hissəsi olan bu mövqe ABŞ-nin sülh, demokratiya çağırışlarına tamamilə ziddir və dövlətimizə qarşı xəyanətdir".

Komitə sədri bildirib ki, otuz il Azərbaycan torpaqlarını işğal altında saxlayan, şəhər və kəndlərimizi, dini-tarixi, mədəni abidələrimizi məhv edən, beynəlxalq hüququn bütün norma və prinsiplərini pozan, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparan Ermənistanın belə müdafiə edilməsi, Azərbaycanın günahkar kimi təqdim edilməsi ədalətsizlik, əsl düşmənçilikdir.

T.Rzayev deputat həmkarlarının bu məkrli siyasətə qarşı çıxmalarını və xarici işlər naziri Ceyhun Bayramova müraciət ünvanlamalarını təbii, düzgün addım hesab edir. Bu, tək deputatların etirazının ifadəsi deyil, bütün xalqın fikridir. ABŞ Konqresi və rəsmi dairələri Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkməklə, haqqı-ədaləti dəstəkləməklə ölkələr arasında münasibətlərin yaxşılaşdırılmasına nail ola bilər ki, bu da hər iki dövlətin milli maraqlarının təmin olunması baxımından çox vacib və əhəmiyyətlidir.

"Ermənistanın silahlandırılması, revanş cəhdləri erməni xalqını uçuruma aparır, bu dövlətin varlığını şübhə altına qoyur. ABŞ və Ermənistan bunu dərk etməli, müharibənin dərslərindən nəticə çıxarmalıdırlar", - deyə komitə sədri əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fəaliyyətsiz Minsk qrupunun qalıqlarına süni nəfəs vermək əbəsdir



Bu gün Azərbaycan regionun əsas siyasi və iqtisadi güc mərkəzinə çevrilib. Dünyada baş verən geosiyasi dəyişikliklər fonunda dövlətimizin başçısı Azərbaycanı bu qarşıdurmalardan kənarda saxlamağı bacarıb. Ermənistandan fərqli olaraq, dövlətimiz öz milli təhlükəsizliyini təmin etməkdədir. Vətən müharibəsi təkcə işğalçı üzərində qələbə deyildi. O, həm də işğalçını həvəsləndirən bəzi siyasi liderlərin məğlubiyyəti idi. Bu, Ermənistanla bərabər, bir sıra Qərb liderlərinin Azərbaycan Prezidentinə şəxsi məğlubiyyəti idi. Bunu AZƏRTAC-a açıqlamasında COP29-un Təşkilat Komitəsinin üzvü, Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib.

ABŞ Senatının 60 nümayəndəsinin dövlət katibi Entoni Blinkenə müraciətini Birləşmiş Ştatların ölkəmizə növbəti təzyiq cəhdi adlandıran deputat əlavə edib: "Məktubda qeyd olunduğu kimi - COP29 kimi mötəbər tədbir bir fürsət kimi istifadə edilib. İnsan hüquqları və demokratiyadan təzyiq vasitəsi kimi istifadə etməyə çalışan ABŞ öz ölkəsində insan hüquqlarının boğulan səsindən niyə danışmır? ABŞ-nin faktiki siyasi məhbusu olan Culian Assanj illərlə qeyri-insani işgəncələrə məruz qalıb. Azərbaycanı siyasi məhbuslarla bağlı ittiham edən ABŞ hökuməti özü söz və məlumat azadlığına hücum edərək jurnalist Culian Assanjın bir sıra absurd ittihamlarla həbsinə nail olub. İsveçdə həbs olunan Assanjın ABŞ-yə ekstradisiya olunmasına çalışıb. Assanj 2012-2019-cu illər arasında Ekvador səfirliyində təcrid şəraitində yaşamaq məcburiyyətində qalıb. Onun fiziki və psixoloji sağlamlığına ciddi ziyan vurulub. Beynəlxalq hüquq müdafiəçiləri bu təcrid şəraitini qeyri-insani hesab edirlər. Ona "psixoloji işgəncə" verilib. ABŞ Assanjı "Casusluq Aktı" ilə ittiham edir və onu 175 ilədək həbs cəzası gözləyir. Bir çox insan haqları və jurnalistika təşkilatları bu ittihamların söz azadlığını boğmağa xidmət etdiyini bildirir. BMT-nin xüsusi məruzəçiləri Culian Assanjın məruz qaldığı rəftarın qeyri-insani olduğunu və onun siyasi məqsədlərlə təqib edildiyini bildirirlər. İnsan hüquqlarını kobud şəkildə pozan və azad mətbuatı susduran ABŞ digər ölkələrin daxili işinə qarışır, müharibə cinayətkarlarının, soyqırımı törədənlərin, etnik təmizləmə aparanların, insanlığa zidd əməllər törədən canilərin azad olunmasına çağırışmı edir?"

Qarabağ məsələsinin çoxdan həll edildiyini söyləyən Pərvanə Vəliyeva qeyd edib ki, fəaliyyətsiz Minsk qrupunun qalıqlarına süni nəfəs vermək nəticəsiz qalacaq. Vətən müharibəsindən sonra Paşinyan hesab etdi ki, Ermənistana yeni qarant qüvvə lazımdı və bu vaxta qədər Ermənistan hökumətinin həyata keçirdiyi siyasət artıq işləmir. Ona görə də Fransa və ABŞ fərqli ampluada Ermənistanla Azərbaycan məsələsini yenidən gündəmə gətirmək istəyirlər. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycana heç kəs heç nəyi diktə edə bilməz. Ölkəmiz tarixin sınaqlarından üzüağ çıxdığı kimi, Qərbin Ermənistanı gücləndirməsi sınağından da qalib kimi çıxacaq.

"Milli Məclisin 43 deputatı ilə birgə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova müraciət edib ABŞ-lə ölkəmiz arasında münasibətləri yenidən nəzərdən keçirməyi xahiş etmişik. Dövlətimiz öz daxili imkanları hesabına güclənmək potensialına malikdir və bizim Qərbin məqsədli dəstəyinə ehtiyacımız yoxdur. Uduzan Azərbaycan ictimaiyyətinin gözündə nüfuzuna ciddi ziyan dəyən Qərb olacaq", - deyə Milli Məclisin deputatı vurğulayıb.

## Vaşinqtonun hərəkətləri cavabsız qalmayacaq

"Azərbaycan heç vaxt indiki qədər güclü və nüfuzlu olmayıb. Faktlara dayanaraq deyə bilərik ki, ən azından İkinci Dünya müharibəsindən bu yana ABŞ də indiki qədər zəif və nüfuzsuz olmayıb. Bir sıra hallarda bu bütövlükdə baş verən geosiyasi proseslərlə əlaqəli olsa da, digər hallarda məhz bu ölkənin rəhbərliyində kimlərin təmsil olunması ilə də bağlıdır".



Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında bildirib ki, Bayden Administrasiyası və ABŞ-nin indiki Departament rəhbərliyi qədər ölkəsinin xüsusilə Cənubi Qafqazla bağlı maraqlarına zərbə vuran ikinci rəhbərlik olmayıb. Entoni Blinken Prezident İlham Əliyevlə telefon danışığında, eləcə də digər Amerika rəsmiləri dövlətimizin başçısı ilə görüşlərində ölkələrinin COP29-un Azərbaycanda keçirilməsini dəstəklədiklərini və hər cür yardım etməyə hazır olduqlarını bildiriblər. İndi isə tam əks mövqe sərgiləyirlər. "Nə baş verdi? O oldu ki, Azərbaycan onların təzyiqlərinə boyun əyərək, zorla sırımaq istədikləri yarımçıq sülh müqaviləsini imzalamaq istəmir. Bu, sadəcə, yarımçıq sülh sazişi deyil, həm də elə bir sənəddir ki, Amerika və regionda qarşıdurmanın qalmasında maraqlı olan digərləri bu anlaşma ilə Azərbaycanın əl-qolunu bağlamaq və Ermənistanı növbəti qarşıdurmaya hazırlamaq istəyirlər. Bununla çalışırlar ki, Azərbaycan onların Ermənistanı dırnaqdan başacan silahlandırmasına etiraz edə bilməsin. Amma bunu görə bilməyəcəklər", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, indiyə qədərki təzyiqləri necə nəticə verməyibsə, budəfəki də belə olacaq.

S.Aliyevin fikrincə, Azərbaycan ABŞ-nin bu cür destruktiv və təxribatçı hərəkətlərini cavabsız buraxmayacaq. Asimmetrik də olsa bu davranışlara mütləq cavab veriləcək.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*



## Ağ Evin qara əməlləri

"Ölkəmizdə keçirilən hər növbəti böyük beynəlxalq tədbir ərəfəsində antiazərbaycançı qüvvələrin qarayaxma kampaniyası aparması, şər və böhtanlarla çıxış etməsi artıq ənənə halını alıb. ABŞ-nin COP29 ərəfəsində bu destruktiv davranışı isə iqlim konfransını siyasiləşdirmək cəhdidir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, ən çox müharibələr aparan, ən çox neft istehsal edən, ekologiyanı ən çox çirkləndirən ABŞ və bəzi Qərb ölkələri iqlim maliyyəsi ilə bağlı xərcləri artırmaq əvəzinə diqqəti tamam başqa istiqamətə yönəldirlər. Belə ki, onlar Azərbaycanla təzyiq və təhdid dili ilə danışmağa çalışaraq ölkəmizi "etnik təmizləmə"də ittiham edirlər. Azərbaycan işğala son qoyaraq öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Ölkəmizin öz suverenliyini tam bərpa etməsini həzm etməyən qüvvələrin siyasi motivli hücumları Azərbaycanın beynəlxalq arenada qazandığı uğurlara kölgə salmaq cəhdidir. Ölkəmiz tarixi qələbəsindən sonra böyük logistik imkanları vasitəsilə yeni imkanlar təqdim edir. "Azərbaycan "yaşıl enerji" və digər enerji resursları ilə Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayır. Bütün bu proseslərə rəğmən ABŞ və Fransa Ermənistanı hücum silahları ilə silahlandırır. Onlar Cənubi Qafqazı Ermənistan vasitəsilə təsir altına salmaq istəyirlər", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, COP29 yaxınlaşdıqca məlum məkrli qüvvələr "insan hüquqları" bəhanəsi ilə ölkəmizə qarşı hücumlarını intensivləşdiriblər. Azərbaycana qarşı qərəzli münasibəti ilə tanınan, ermənipərəst mövqelərini gizlətməyən bəzi beynəlxalq qurumlar, xüsusilə də erməni lobbisi ilə sıx işbirliyində olan "Freedom House", "Human Rights Watch" və digərləri COP29 ərəfəsində ölkəmizə qarşı apardıqları ləkələmə kampaniyasının miqyasını daha da genişləndiriblər. Erməni lobbisinin çirkli pulları ilə bəslənən bu cür qərəzli təşkilatlar "insan haqları", "demokratiya", "vətəndaş cəmiyyəti" məfhumlarından ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlar.

Deputat diqqətə çatdırıb ki, Azərbaycan bütün addımlarını beynəlxalq qanunlar çərçivəsində atıb, ona görə də bu gün heç kimin bizdən nəyinsə hesabını sormağa haqqı yoxdur: "Əgər kimsə hesabat verməlidirsə, bu, erməni lobbisinin marionet kuklalarına çevrilmiş fransız senatorlar, rüşvətxor holland deputatlar, Avropa Parlamentinin ədalət hissini itirmiş parlamentariləridir. Çünki Azərbaycanın illər boyu əziyyətini çəkdiyi keçmiş Qarabağ münaqişəsinin mövcudluğunda, Cənubi Qafqazda bu gün də sülhün bərqərar olmamasında Ermənistan qədər onlar da günahkardırlar. Öz maraqlarını regionun dinc gələcəyindən üstün tutan riyakarlar bizdən, ümumiyyətlə, heç nə tələb edə bilməzlər. Onların parlamentlərinin, senatlarının qəbul etdiyi qətnamələr isə bizim üçün heç nəyə yaramayan kağız parçalarından başqa bir şey deyil".

K.Bayramov əlavə edib ki, Azərbaycan COP29-un timsalında bütün planeti narahat edən məsələlərin müzakirəsinə evsahibliyi etməyə hazırlaşır. Hazırda iqlim dəyişikliyi elə problemlər yaradıb ki, dünya ölkələri vahid mövqedən çıxış etməli, bunun həll yollarını tapmaqda maraqlı olmalıdırlar. Əsasən də, ABŞ dünyanın super gücü kimi bu məsələdə öndə getməli, təşəbbüskarlıq göstərməlidir. COP-un gündəliyi olduqca aktual məsələlərlə zəngindir.

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*




# COP29-a aparan yol

## Azərbaycanın enerji keçidi siyasəti beynəlxalq təşkilatların hesabatlarında uğurlu göstəricilərlə əks olunub

**Birləşmiş Millətlər Təşkilatının qlobal iqlim dəyişmələrinə aid çərçivə konvensiyası ilə əlaqədar keçiriləcək COP29 forumunun açılışına bir aya yaxın zaman qalır. Bu möhtəşəm beynəlxalq konfransın Bakıda keçirilməsi təsadüfi deyil. Bu tədbirin ölkəmizdə keçirilməsinə həsr olunmuş və 15 dekabr 2023-ci ildə keçirilən toplantıda Prezident İlham Əliyev qeyd etmişdi: "Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq".**



Azərbaycana göstərilən etimad və böyük hörmətin əsasında Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi və Prezident İlham Əliyev tərəfindən tam yeni və çox yüksək səviyyəyə qaldırılmış innovativ dövlət idarəçiliyi durur. Ümumiyyətlə, uğurlu innovativ dövlət idarəçilik texnologiyalarının tətbiqi son illərdə əldə edilmiş bir çox tarixi nailiyyətləri şərtləndirib. Bunların arasında Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə ərazilərinin işğaldan azad edilməsi və nəticə etibarilə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməsi, 24 saatdan qısa zaman kəsiyində ölkənin bütün ərazisində suverenliyin bərpası, azad olunmuş ərazilərin iqtisadi, sosial, humanitar, ekoloji və demoqrafik reabilitasiyası xüsusi yer tutur və bu təcrübənin qlobal səviyyədə öyrənilməsi artıq bir qayda halını alıb və daim davam edəcək.

COP29-a evsahibliyi üçün Bakının seçilməsi də ölkədə keçirilən uğurlu siyasətin, bu sahədə ardıcıl fəaliyyətin nəticəsidir. Bu siyasətin bir istiqaməti gələcəyi görmək, davamlı inkişaf sahəsində düzgün proqnozlar vermək və onların əsasında uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsidir. Bu strategiya çərçivəsində Azərbaycanda COP29-a aparan yolun ilk əsas addımları 20 il öncə atıldı. Buna misal olaraq Prezident İlham Əliyevin 21 oktyabr 2004-cü il tarixli 462 nömrəli sərəncamını göstərmək olar. Həmin sərəncamla Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə dövlət proqramı təsdiq edildi. Hadisə 2004-cü ildə, Prezident İlham Əliyevin dövlət başçısı vəzifəsinə seçildiyi ilk illərdə baş vermişdi. Dünya Bankının məlumatına əsasən, hazırda ölkədə yoxsulluq 5 faiz səviyyəsində olduğu halda, o zaman 2004-cü ildə yoxsulluq 35 faiz təşkil edirdi. Ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkün var idi və onların məskunlaşma və yaşam şəraiti o zaman çox çətin durumda idi. Ölkənin 20 faizi işğal altındaydı və onları azad etmək üçün hərbi quruculuq həyatı bir məsələ idi. Bütün bunlar üçün iqtisadi bazanın yaradılması, onun bu gun müşahidə edilən hərbi qüdrətə və yüksək sosial rifaha çevrilməsi gündəmdə olan əsas məsələlərdən idi. Belə bir şəraitdə, Prezident İlham Əliyevin alternativ və bərpaolunan enerji ilə məşğul olması onun prosesin aktuallığını vahid kompleks şəklində görməsindən irəli gəlirdi.

O zaman Azərbaycan kifayət dərəcədə enerji ilə təmin olunmuşdu və dünyada neft və qaz ixracatçısı kimi tanınırdı. Bu, o deməkdir ki, bərpaolunan enerjiyə keçid istiqamətində atılan bu ilk addımlar məcburiyyət, ölkədə enerji mənbələrinin məhdudluğu ilə bağlı deyildi. 20 il bundan əvvəl dövlət başçısı İlham Əliyev iqlim dəyişmələrinin qarşısının alınmasının, inkişafın davamlılığının, ənənəvi enerji mənbələrindən bərpa olunanlara keçidin dünya prioritetinə çevriləcəyini görürdü. Bütün bunlar Prezident İlham Əliyevin çox vacib bir istedadının təsdiqi sayıla bilər: qlobal miqyasda düşünmək və lokal səviyyədə qabaqlayıcı fəaliyyət göstərmək.

İqlim dəyişmələrinin qarşısının alınması və inkişafın davamlılığının təmin edilməsi üçün ən əhəmiyyətli olan enerji keçidi istiqamətində fəaliyyət sonrakı illərdə də Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Onun 2009-cu il 16 iyul tarixli 123 nömrəli fərmanı ilə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyində xüsusi Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradıldı, bu istiqamətin inkişafı üçün ölkədə bir sıra qərarlar qəbul edildi və tədbirlər həyata keçirildi.

Davamlı inkişafın təmin edilməsi, qlobal iqlim dəyişmələrinin qarşısının alınması üçün aktual olan bərpaolunan enerji məsələləri növbəti illərdə də Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Nazirlər Kabinetinin 2013-cü il sosial-iqtisadi inkişafın yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqində Prezident qeyd etmişdir: "Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı".

Davamlı enerji mənbələrinə keçidin uğurla reallaşdırılması üçün ölkədə kadr potensialının formalaşmasına xüsusi əhəmiyyət verilirdi. Prezident İlham Əliyev 2003-cü ildə Dünya Sammitində çıxış edərkən "Qara qızılın insan qızılına" çevrilməsi prosesinin ölkənin əsas inkişaf strategiyası kimi müəyyənləşdirildiyini qeyd etmişdi.

Neft və qazın ixracından əldə olunan gəlirlərin insan potensialının inkişafına, onun iqtisadiyyatda insan kapitalına çevrilməsinə yatırılması nəzərdə tutulurdu və bu istiqamətdə fəaliyyət uğurla həyata keçirilirdi. Bu strategiya çərçivəsində 2015-ci ilin iyun ayında, yəni davamlı inkişafı dünya prioriteti elan edən BMT-nin 2015-ci ilin sentyabrındakı 70-ci yubiley sessiyasından daha qabaq Azərbaycanda dünyada ilk dəfə tədrisə bakalavr, magistr, fəlsəfə və elmlər doktoru səviyyəsində inklüziv cəmiyyətin formalaşması üçün əhəmiyyətli olan yeni ixtisas - "davamlı inkişafın idarə edilməsi" daxil edildi. Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və şəxsi diqqəti ilə Azərbaycanda fəaliyyət göstərən dünyanın ilk "İnklüziv inkişaf mərkəzləri" inkişafın davamlı olması və bu sahədə insan potensialının formalaşması üçün misilsiz töhfə oldu.

Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasına görə, Azərbaycan Respublikası bir çox istiqamətlərdə, o cümlədən enerji keçidi strategiyası sahəsində dünya lideridir. Bunu Dünya İqtisadi Forumunun 9 dekabr 2023-cü il və 17 iyul 2024-cü il Cenevrədə dərc edilən hesabatları da təsdiq edir. Bu təşkilatın hesabatına əsasən, Azərbaycanın Enerji Keçidi İndeksi 62-yə bərabərdir. Ölkəmiz bu göstəriciyə görə dünyada 32-ci yerdədir və bir çox iqtisadiyyatda yüksək nəticələr əldə etmiş ölkələri geridə qoyub. Bu ölkələr arasında İtaliya, Belçika, Çexiya, Polşa və Yunanıstanı göstərmək olar **(Şəkil 1).**




**Şəkil 1. Azərbaycan və iqtisadi inkişafda yüksək nəticələr əldə etmiş ölkələrin Enerji Keçidi İndeksləri**




**Şəkil 2. Enerji keçidi sahəsində dünyada ən yüksək nəticələr əldə etmiş ölkələr və Azərbaycan Respublikasının Enerji Keçidi İndekslərinin dəyəri**




**Şəkil 3. Enerji keçdi sahəsində dünyada ən yüksək nəticələr əldə etmiş ölkələr və Azərbaycan Respublikasında Ümumi daxili Məhsulun (ÜDM) bir vahidinin (1000 ABŞ dolları Alıcılıq Qabiliyyəti Pariteti ilə) istifadəsi nəticəsində yaradılmış Enerji Keçidi İndekslərinin dəyəri.**

Qeyd edilməlidir ki, Azərbaycandan Enerji Keçidi İndeksi daha az olan və şəkil 1-də təqdim edilmiş bütün ölkələr Avropa İttifaqının üzvləridir. Bütün bu ölkələr dünyanın 38 ən zəngin ölkələrini birləşdirən İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının üzvləridir. Üstəlik, İtaliya eyni zamanda G 7 ("böyük yeddilik") qrupuna daxil olan ölkədir. Azərbaycan Respublikasının enerji keçidi sahəsində belə yüksək nəticə qazanması və bu göstəriciyə görə iqtisadiyyatda daha yüksək nəticələr qazanmış ölkələrlə bir cərgədə olması Prezident İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən davamlı inkişaf strategiyasının nəticəsidir.

Enerji keçidinin idarə edilməsi, bu sahədə ehtiyatların optimal təşkili sahəsində Azərbaycan Respublikası dünya lideridir. Şəkil 2 və şəkil 3-də təqdim olunmuş məlumatların müqayisəsi bunu göstərir. Şəkillərdə təqdim olunmuş məlumatlar Dünya İqtisadi Forumu və Dünya Bankı tərəfindən 2023-cü və 2024-cü illərə aid hesablanmışdır.

**Şəkil 2-də** enerji keçidi indeksinə görə Azərbaycandan daha yüksək göstəricilərə malik olan 6 ölkə haqqında məlumatlar təqdim olunub. Şəkildən göründüyü kimi, bütün bu ölkələr Azərbaycan ilə müqayisədə enerji keçidi sahəsində daha yüksək nəticələr qazanıblar. Bu sahədə dünya birincisi olan İsveçin Enerji Keçidi İndeksi Azərbaycan Respublikasından 21 faiz yüksəkdir.

Dövlət idarəçiliyində qazanılan hər hansı uğur yalnız əldə edilən nəticə ilə yox, eyni zamanda həmin nəticənin hansı xərclər hesabına əldə edilməsi ilə də ölçülür. Bu eyni zamanda idarəetmənin nə dərəcədə elmi və texnoloji baxımdan mükəmməl olduğunu göstərir. Bu sahədə sadə bir qayda işləyir: əgər nisbətən məhdud vəsaitin istifadəsi ilə yüksək nəticə qazanılırsa, bu daha mükəmməl idarəetmə texnologiyalarının istifadəsindən, prosesin əsasında müasir elmin və texnologiyaların olmasından xəbər verir. Şəkil 3-də qlobal iqlim dəyişmələrinin qarşısının tam alınması və ya təsirlərin yumşadılmasında əhəmiyyətli olan enerji keçidinin iqtisadi səmərəliliyi haqqında məlumatlar təqdim olunub. Məlumatlar Dünya Bankı və Dünya İqtisadi Forumu tərəfindən 2023-cü ilin sonu və 2024-cü ildə dərc edilib.

**Şəkil 3-də** təqdim olunmuş məlumatlar göstərir ki, müqayisə edilən ölkələr arasında Enerji Keçidi İndeksinin formalaşması üçün maddi resursları ən optimal idarə edən Azərbaycan Respublikasıdır. Qlobal iqlim dəyişmələri kimi çağırışa cavab olan enerji transformasiyası üçün vəsaitləri ən səmərəli istifadə edən bizim ölkədir. Azərbaycanın enerji keçidi indeksinin hər vahidinə sərf etdiyi maliyyə resursları ölkəmizə ən yaxın olan Çilidən 29 faiz azdır. Bu sahədə dünya birincisi olan İsveç enerji keçidi indeksinin hər vahidinin formalaşmasına Azərbaycandan iki dəfə çox vəsait sərf edir.

Davamlı inkişaf naminə enerji keçidinin Azərbaycanda yüksək səviyyədə olması dünyada ilk dəfə Prezident İlham Əliyevin işlədiyi tam yeni dövlət idarəçilik texnologiyaları kompleksinin tətbiqinin nəticəsidir. Bu sinergetik, komplementar, kompensasion, komplimentar (komplementar ilə eyni deyil), rezonans texnologiyalar kompleksidir və dövlət idarəçiliyində səmərəliliyi əhəmiyyətli dərəcədə yüksəltmək imkanı yaradır. Bu texnologiyalar öz səmərəliliyini bir çox istiqamətlərdə, o cümlədən davamlı inklüziv inkişaf sahəsində də göstərmişdir. Beynəlxalq statistikaya görə, Azərbaycan Respublikası inklüziv inkişaf sahəsində 75-ci iqtisadi imkanla dünyada 25-ci yerdədir. Bu texnologiyaların sosial sahəyə tətbiq edilməsində ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri var. Eyni zamanda COP29-un Azərbaycan Respublikasında keçirilməsi ölkənin innovativ inkişafının nəticəsidir.

**Urxan ƏLƏKBƏROV,**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# COP29 Azərbaycanın qlobal nüfuzunu daha da artıracaq



Milli Məclisin oktyabrın 8-də keçirilmiş iclasında qəbul olunan məsələlərdən biri "Azərbaycan Respublikası Hökuməti ilə birgə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının, Kioto Protokolunun və Paris Sazişinin Katibliyi arasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfrasının on doqquzuncu sessiyası, Paris Sazişinin Tərəflər Görüşünün altıncı sessiyası və Köməkçi Orqanların sessiyaları haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsidir.

Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlama verən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, bu qanun layihəsinin qəbulu Azərbaycanın BMT ilə əməkdaşlıq səylərini gücləndirmək və iqlim dəyişikliyi ilə mübarizədə qlobal öhdəliklərini yerinə yetirmək məqsədi daşıyır. BMT Baş Assambleyasının 1985-ci ildə qəbul etdiyi A/RES/40/243 saylı qətnaməyə uyğun olaraq, ev sahibi ölkələrin beynəlxalq konfransların keçirilməsi zamanı məsuliyyətləri müəyyən edilmişdir. Azərbaycan da bu tələblərə uyğun olaraq, COP29 tədbirinin keçirilməsi ilə əlaqədar təşkilati və təhlükəsizlik məsələlərini yüksək səviyyədə təmin edəcəkdir.

Komitə sədrinin sözlərinə görə, sazişdə Azərbaycan ən az inkişaf etmiş ölkələrin, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin, Afrika qrupunun, 77-lər Qrupunun və Çinin sessiyaqabağı görüşlərinin keçirilməsi və əlavə razılaşdırılmış görüşlərə evsahibliyi etmək öhdəliyini qəbul etmişdir. Sazişə əlavə edilmiş öhdəliklər çərçivəsində COP29-un təşkilində müxtəlif xidmətlər, o cümlədən media, maliyyə, iaşə, tərcümə və nəqliyyat xidmətləri də təmin olunacaq. Bu tədbir Azərbaycan üçün iqtisadi, diplomatik və ekoloji sahələrdə yeni imkanlar yaradacaq və ölkəmizin nüfuzunu daha da artıracaq.

Sadiq Qurbanov onu da qeyd edib ki, COP29 konfransı Azərbaycan üçün yalnız bir nüfuzlu beynəlxalq tədbir deyil, həm də davamlı inkişaf strategiyamızın bir hissəsi və iqlim dəyişikliyi ilə mübarizədə lider ölkələrdən biri olmaq üçün bir platformadır: "Biz ev sahibi olan ölkə kimi, bu tədbirin yüksək səviyyədə keçirilməsini təmin edəcək və qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizəyə öz töhfəmizi verəcəyik. Dünyanın diqqəti bu dövrdə Bakıya yönələcək və ölkəmiz ekoloji problemlər və iqlim dəyişiklikləri ilə bağlı müzakirələrin mərkəzində dayanacaqdır".

Qeyd edək ki, bu beynəlxalq tədbirdə dünyanın müxtəlif ölkələrindən dövlət nümayəndələri, müşahidəçi təşkilatlar, beynəlxalq media, qeyri-hökumət təşkilatları, özəl sektor və digər nümayəndələr iştirak edəcəklər. Azərbaycan bu tədbir vasitəsilə iqlim dəyişikliyi ilə mübarizədə fəal rol oynadığını bir daha sübuta yetirəcək. Bu barədə danışan Sadiq Qurbanovun sözlərinə görə, COP29 konfransının Azərbaycanda keçirilməsi iqlim dəyişikliklərinə qarşı qlobal mübarizədə ölkəmizin liderliyini nümayiş etdirmək üçün əvəzsiz bir imkandır: "Ölkəmiz bir tərəfdən iqlim siyasətimizi dünyaya nümayiş etdirəcək, digər tərəfdən isə, qlobal iqlim məsələləri ilə bağlı yeni təşəbbüslərə imza atacaq. Eyni zamanda bu tədbir Azərbaycan iqtisadiyyatına və turizminə müsbət təsir göstərəcək və ölkəmizə beynəlxalq aləmin diqqətini cəlb edəcəkdir.

Bu konfrans Azərbaycanın ekoloji siyasətində əhəmiyyətli bir mərhələdir və biz, dövlət olaraq, bu məsuliyyəti layiqincə yerinə yetirməliyik. İqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığı daha da möhkəmləndirmək və ekoloji davamlı inkişafı təmin etmək üçün bu tədbir bizim üçün yeni imkanlar yaradacaqdır".

COP29 konfransı Azərbaycana yeni iqtisadi və diplomatik imkanlar açacaq, qlobal səviyyədə ölkəmizin nüfuzunu daha da artıracaqdır. Bu barədə qənaətlərini bölüşən Sadiq Qurbanov deyib ki, parlament bu konfransın müvəffəqiyyətlə keçirilməsi üçün lazım olan dəstəyi göstərəcəkdir: "Gələcək nəsillərimizin sağlam və təhlükəsiz mühitdə yaşaması üçün bu məsələnin əhəmiyyəti danılmazdır. İqlim dəyişikliyi təkcə ekoloji məsələ deyil, həm də iqtisadi, sosial və strateji əhəmiyyət daşıyan qlobal bir problemdir. Bu səbəbdən, Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizəni dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qəbul edir. Bu beynəlxalq tədbirin uğurla keçirilməsi üçün hökumətimiz və müvafiq qurumlar ciddi hazırlıqlar görməkdədir və parlament olaraq bu işləri dəstəkləmək bizim vəzifəmizdir".

Azərbaycanın COP-29-a evsahibliyi etdiyi müddətdə dünyanın xilası üçün çevik qərarların qəbul olunmasına öz töhfəsini verəcəyini bildirən komitə sədri əlavə edib ki, hökumətimiz bu tədbir çərçivəsində zəruri infrastrukturu və təhlükəsizlik tədbirlərini təmin edəcək. Konfrans zamanı iştirakçıların hər cür ehtiyacı, o cümlədən rabitə, media və digər təşkilati məsələlər yüksək səviyyədə təmin olunacaq. Pandemiya və ya digər qlobal sağlamlıq problemləri üçün əlavə tədbirlər nəzərdə tutulub və hər hansı fövqəladə vəziyyətə cavab verilməsi üçün bütün hazırlıqlar görülür. O cümlədən Azərbaycan hökuməti tərəfindən COP29-da iştirak üçün qeydiyyatdan keçmiş tərəflərə UNFCC onlayn qeydiyyat sistemi vasitəsilə ödənişsiz "COP29 xüsusi viza" xidmətləri təklif olunur. COP29-un xüsusi vizasını həm rəsmi elektron viza portalı, həm də Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə əldə etmək mümkündür.

Konfrans iştirakçıları üçün münasib qiymətli hotellər və nəqliyyat xidmətləri təşkil ediləcək. İnkişaf etməkdə olan ölkələrdən gələn nümayəndələrə xüsusi güzəştlər tətbiq olunacaq. Həmçinin konfrans məkanı ilə hotellər arasında nəqliyyat xidmətləri fasiləsiz olaraq təmin ediləcək. Sessiyaqabağı görüşlər 5-10 noyabr tarixlərində baş tutacaq. COP29 konfransı isə 11-22 noyabr Bakı Olimpiya Stadionunda keçiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# "Azərbaycan müstəqil siyasət yürütdüyü üçün ABŞ-nin riyakarlığı ilə üzləşib"

Azərbaycanın müstəqil siyasət yürüdərək torpaqlarını işğaldan qurtararaq ərazi bütövlüyü və suverenliyini bərpa etməsi ABŞ və digər Qərb dövlətləri tərəfindən heç də xoş qarşılanmadı.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyənin CGTN media qurumunun siyasi şərhçisi Yakub Aslan deyib. O bildirib ki, Amerika Yaxın Şərqdə müstəqil siyasət aparan ölkələrə qarşı olduqca sərt mövqe tutub. Regionu hegemonluğu altında saxlayaraq buradakı ölkələrin sərvətini ələ keçirmək, oradakı hakimiyyətləri əlinin altına alaraq geosiyasi mübarizəsində istifadə etmək istəyən ABŞ heç bir dövlətin milli maraqlarını nəzərə almır. İraqda, Suriyada, Liviyada, Tunisdə zorakı yollarla dövlət çevrilişləri həyata keçirən ABŞ həmin dövlətləri bombalayaraq dağıtdı və yüz milyonlarla insanın ölümünə səbəb oldu. Bu dövlətlər müstəqil siyasət apardıqları, ABŞ-nin maraqlarını təmin etmədikləri üçün dağıdıldı. Halbuki onların heç biri ABŞ üçün real təhlükə törətmirdi. Onlar Amerikadan məsafə, ideoloji, mentalitet və digər parametrlərə görə çox uzaqda idilər.

Rəsmi Vaşinqton Türkiyəyə qarşı da müəyyən sanksiyalar qəbul edib və Ankaraya təzyiq göstərir. ABŞ Türkiyənin milli maraqlarından deyil, rəsmi Vaşinqtonun maraqlarından çıxış etməsini istəyir. Türkiyə illərlə Avropa İttifaqına (Aİ) üzv olmağa çalışsa da, buna imkan verilmir. ABŞ-nin Avropadakı müttəfiqləri müxtəlif bəhanələrlə Türkiyəni "qapı ağzında" saxlayırlar. Halbuki həm iqtisadi, həm siyasi, həm də demokratik inkişaf baxımından Türkiyədən dəfələrlə geridə qalan dövlətlər Aİ-yə qəbul olunub.

Siyasi ekspert bildirib ki, Azərbaycan müstəqil siyasət



apardığı üçün ABŞ-nin riyakarlığı ilə üzləşib. Son 30 il ərzində Ermənistanı ara-sıra yada salan ABŞ Azərbaycanın Qarabağı azad etməsindən sonra İrəvana hərbi-siyasi yardımlarını ikiqat artırıb. ABŞ-nin maliyyə dəstəyi ilə hakimiyyətə gələn baş nazir Nikol Paşinyan rəsmi Vaşinqtonun təlimatları ilə addım atmağa məcburdur. ABŞ Qafqaz respublikalarını siyasi oyunlara cəlb etmək üçün Ermənistanı mərkəz seçib. ABŞ-nin hərbi mütəxəssislərinin Ermənistan ordusunda yüksək vəzifələr tutmaları, silah-sursatla təminat onu deməyə əsas verir ki, rəsmi Vaşinqton regionda sülhün və sabitliyin bərpasında maraqlı deyil.

Yakub Aslan qeyd edib ki, ABŞ bütün dövlətlərə "insan hüquqlarının müdafiəsi", "demokratiya", "fikir azadlığı" və bu kimi digər siyasi anlayışlardan sui-istifadə edərək müdaxilə edir. Bu, təsadüfi deyil. Hər hansı bir dövlətə müdaxilə etmək istəyən ABŞ qeyri-hökumət təşkilatları (QHT) tərəfindən hazırlanmış siyasi texnologiyanı işə salır. Konqresdən pul alan QHT-lər əvvəlcə medianı ələ keçirir və geniş təbliğat kampaniyasına başlayırlar. İnsanlara dəbdəbəli həyat vəd edilir. Daha sonra ələ aldıqları mətbuat orqanları, sosial şəbəkə istifadəçiləri və internet resursları vasitəsilə kütləvi aksiyalar təşkil olunur. Daha sonra isə dövlət çevrilişi həyata keçirilir və hakimiyyətə guya xalqın istəyi ilə qərbyönümlü siyasətçi gətirilir. ABŞ bu işləri QHT vasitəsilə həyata keçirərək özünü təmiz saxlamağa cəhd edir. Amerikanın İraqa, Suriyaya, Liviyaya gətirdiyi "demokratiya" və "dəbdəbəli həyat" tərzi dünya ictimaiyyətinin gözünün qarşısındadır. 1990-cı illərdən başlayaraq ABŞ-nin Yaxın Şərq ölkələrinə müdaxiləsinin nəticəsi ondan ibarətdir ki, 30 il ötməsinə baxmayaraq, bu dövlətlər hələ də normal həyata qayıda bilməyib.

"COP29-u da siyasiləşdirən Amerika qlobal xarakter daşıyan ekoloji problemlərə barmaqarası baxır. Rəsmi Vaşinqtonu yalnız özünün korporativ maraqları düşündürür. O, belə bir mötəbər tədbirin Bakıda keçirilməsinin nə demək olduğunu yaxşı bilir və ona görə də şantaja əl atır. COP29 qlobal xarakter daşıyan ekoloji problemlərin həllinin tapılması üçün vacib tədbirdir və bu işdə maraqlı olan dövlətlər konfransda iştirak edib ondan faydalanacaqlar", - deyə siyasi şərhçi vurğulayıb.

## *Pakistan Senatının Sədri:* "Ölkəmiz Bakıda keçiriləcək COP29-da layiqincə təmsil olunacaq"

"Pakistan Bakıda keçiriləcək COP29-da layiqincə təmsil olunacaq".



AZƏRTAC xəbər verir ki, bu sözləri Pakistan Senatının Sədri Yusif Rza Gilani Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov ilə görüşü zamanı söyləyib. O, iki ölkə arasında mədəni və dini əlaqələrə əsaslanan qardaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini vurğulayaraq, ticarət dövriyyəsinin son illər ardıcıl olaraq artdığını bildirib.

Yusif Rza Gilani parlamentlər səviyyəsində mütəmadi şəkildə ikitərəfli mübadilələrin aparılmasının əhəmiyyətindən danışıb. Görüşdə Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov iki ölkə arasında müxtəlif sektorlarda əməkdaşlığın genişləndirilməsinin zəruriliyini vurğulayıb. O, Pakistanın Azərbaycan üçün mühüm ölkə olduğunu və ölkəmizin Pakistanla əlaqələrini daha da genişləndirməkdə maraqlı olduğunu ifadə edib.

## Naxçıvan "Greenfest"ə hazırlaşır




İqlim dəyişmələri ilə mübarizəyə qlobal müstəvidən yanaşan Azərbaycan 11-22 noyabr tarixlərində bütün dünyanın maraqla gözlədiyi COP29-a evsahibliyi edəcək.

Prezident İlham Əliyevin rəhbərliyi ilə mötəbər tədbirin ölkəmizdə yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır. Dövlət başçısı tərəfindən "yaşıl enerji" zonası elan edilən Naxçıvan Muxtar Respublikasında da iqlim dəyişikliyi ilə mübarizə, təhlükəsiz və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə sahəsində innovativ layihələr icra olunur, müxtəlif tədbirlər keçirilir. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, COP29 və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar olaraq Naxçıvan şəhərində "GreenFest" festivalı keçiriləcək. Oktyabrın 26-sı saat 11:00-da "Saat Meydanı" İstirahət Mərkəzində başlayacaq tədbirdə ekoloji sərgilər, startap təqdimatları, müxtəlif əyləncəli fəaliyyətlər, oyunlar təşkil olunacaq, mövzuya uyğun stendlər nümayiş etdiriləcək. Rəsmilərin də iştirakı ilə önəmli məsələlərin panel müzakirələri, o cümlədən maarifləndirici, təşviqedici aksiyaların və digər fəaliyyətlərin icrası nəzərdə tutulub. Axşam saatlarından etibarən isə "Greenfest"də canlı musiqi dinləmək imkanı olacaq.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər, Ədliyyə, Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Dövlət Energetika Xidməti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçiriləcək tədbirin məqsədi əhalinin diqqətini ekoloji problemlərin birgə həllinə yönəltmək, muxtar respublikanın təbii resurslardan səmərəli istifadə imkanlarını və "yaşıl enerji" potensialını nümayiş etdirmək, eyni zamanda COP29 məqsədlərinə və "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə verməkdir.

## "Azərbaycanın COP29-a sədrliyi bu ilin ən mühüm hadisəsidir"

İqlim problemlərinin və onun bəşəriyyət üçün yaratdığı təhlükələrin qarşısını almaq məqsədilə hər il keçirilən qlobal əhəmiyyətli COP konfranslarının növbəti müzakirə sessiyasına bu il Azərbaycanın evsahibliyi etməsi ölkəmizin beynəlxalq statusunun dəyişməsi ilə müşahidə olunur. Rəsmi Bakı həm dünya ictimaiyyətinə iqlim dəyişikliyi ilə bağlı həll yollarının tapılmasına yardım göstərməyə hazır olduğunu elan edir, həm də baş verməkdə olan enerji keçidi prosesini dəstəkləməklə "yaşıl enerji" sahəsində strateji oyunçu statusunu qazanır.

Bunu AZƏRTAC-a müsahibəsində "Sosial-İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri Rahilə Mehdiyeva deyib.

O bildirib ki, Azərbaycanın sədrliyi ilə keçiriləcək COP29 konfransında dünyanın inkişaf etmiş, inkişafda olan və yoxsul ölkələri arasında iqlim dəyişikliyinin qarşısının alınması üçün maliyyə təminatının həll edilməsi kimi qlobal mövzularda fikir mübadilələri aparılacaq. Bu isə Azərbaycan diplomatiyasının nüfuzunun artmasına xidmət edir. Azərbaycan getdikcə qlobal əhəmiyyətli müzakirələrin ev sahibinə çevrilir və bu, ölkəmizin gələcəkdə siyasi mövqeyinin güclənməsinə vəsilə olacaq.

"Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz ən böyük iqlim konfransına - COP29-a evsahibliyi edəcəyik. Bununla bağlı ötən ilin dekabrında qərar veriləndə hazırlıq üçün bir ildən də az vaxt var idi. Burada ən vacib məqam ondan ibarətdir ki, həmin qərar 200-ə yaxın ölkə arasında konsensusa əsaslanırdı. Biz bunu Azərbaycana olan ehtiramın təzahürü hesab edirik. Tarixdə ilk dəfə COP kimi mötəbər tədbir bizim ölkəmizdə keçiriləcək. Bütün bunların fonunda bir daha demək olar ki, Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin təmin olunması və iqlim dəyişmələri ilə mübarizə üzrə üzərinə götürdüyü bütün öhdəliklərə sadiqlik göstərir", - deyə o əlavə edib.

Azərbaycanın COP29-a sədrliyini bu ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirən R.Mehdiyeva deyib: "Bu, ölkəmizin qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə ön mövqeyə çıxmaq niyyətini göstərir. Azərbaycanın COP29-a sədrlik etməsi ətraf mühitin qorunması və biomüxtəlifliyin saxlanılması sahəsində qlobal səyləri birləşdirəcək. Ümid etmək olar ki, belə bir təşəbbüs Qlobal Şimal və Qlobal Cənub ölkələri arasında ekoloji balansın təmin olunmasına da kömək edəcək".

"Bakının COP29-a sədrliyi həm ölkəmiz, həm də dünya üçün mühüm bir hadisədir. Azərbaycanın üzərinə götürdüyü bu rol iqlim dəyişikliyi ilə mübarizə sahəsində qlobal səyləri birləşdirəcək və daha ədalətli, dayanıqlı bir gələcək qurmağa töhfə verəcək", - deyə müsahibimiz fikrini yekunlaşdırıb.

## *UNESCO:* Azərbaycanın COP29-a sədrliyi çərçivəsində C4C adlı təşəbbüsünə həsr edilmiş konfrans olub

Mədəni ölçüləri iqlimlə bağlı fəaliyyət strategiyasına inteqrasiya etməyə təcili ehtiyac olduğu bir vaxtda UNESCO və bu təşkilat yanında Azərbaycan Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə UNESCO-nun mənzil-qərargahında "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" (C4C) adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın COP29-a sədrliyi çərçivəsində bütün ölkələrin mədəniyyət nazirlərini bir araya gətirəcək "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" (C4C) adlı təşəbbüs təqdim olunub. Konfransda Azərbaycan mədəniyyət nazirinin müavini Fərid Cəfərov, UNESCO-nun baş direktorunun mədəniyyət üzrə müavini Ernesto Ottone, UNESCO-nun ekologiya və torpaq elmləri bölməsinin direktoru, insan və biosfer proqramının katibi Antonio Abrö (Antonio Abreu), beynəlxalq ekspert Martin Nyumən, təşkilata üzv dövlətlərin səfir və daimi nümayəndələri və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

UNESCO-nun baş direktorunun mədəniyyət üzrə müavini Ernesto Ottone və UNESCO-nun ekologiya və torpaq elmləri bölməsinin direktoru, insan və biosfer proqramının katibi Antonio Abrö (Antonio Abreu) çıxış edərək COP29 sədrliyinin bir hissəsi kimi mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə belə bir təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildiriblər. Həmçinin COP29-un əhəmiyyətindən və məqsədlərindən danışılıb. Bildirilib ki, Bakının evsahibliyi edəcəyi COP29 iqlim böhranının həlli istiqamətində xüsusi əhəmiyyətə malikdir. Məhz Bakıda "Dostluq qrupunun" fəaliyyətinin aktivləşəcəyinə, iqlim dəyişikliyi ilə bağlı qəbul ediləcək qərar və görüləcək tədbirlərin mədəni irsin qorunması baxımından da böyük əhəmiyyət kəsb edəcəyinə inandıqlarını qeyd ediblər.

İqlim dəyişikliyi ilə mübarizədə mədəniyyətin həlledici əhəmiyyəti, eləcə də iqlim təsirlərinin həlli yollarında əsas rolu, mədəniyyətin iqlim dəyişikliyi ilə mübarizə strategiyalarına inteqrasiyasının vacibliyini vurğulayıblar.




Dövrümüzün ən böyük problemlərindən biri olan iqlim dəyişikliyini azaltmaq və ona uyğunlaşmaq üçün mədəniyyətin əsas mənbə olduğu diqqətə çatdırılıb.

Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov çıxış edərək, Azərbaycanın COP29-a evsahibliyindən, COP29 konfransının məqsədlərdən söz açıb. O, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başlamış "Bakı Prosesi"nin əhəmiyyətini vurğulayıb və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yekun bəyannaməsini xatırladıb.

"COP29-a evsahibliyi edən ölkə kimi Azərbaycan bu mühüm səyə öz töhfəsini verməyə dərindən sadiqdir. Mədəniyyətin gücündən - ortaq dəyərlərimizdən, biliklərimizdən və yaradıcı ifadəmizdən - istifadə etməklə hamı üçün daha davamlı və möhkəm gələcək qura biləcəyimizə inanırıq.

Mədəni fəaliyyətə olan bu öhdəlik Azərbaycanın beynəlxalq fəaliyyətində dərin kök salmışdır. Mədəni müxtəlifliyi, mədəniyyətlərarası dialoqu və mədəni irsin qorunmasını təşviq etmək üçün UNESCO da daxil olmaqla çoxsaylı təşkilatlarla fəal əməkdaşlıq edirik. Bu tərəfdaşlığın bariz nümunəsi 2008-ci ildə başlanmış və müxtəlif mədəniyyətlər arasında əməkdaşlığı inkişaf etdirmək üçün qlobal tanınma qazanmış mədəniyyətlərarası dialoq üzrə "Bakı Prosesi"dir", - deyə Fərid Cəfərov vurğulayıb.

Bildirib ki, yekun bəyannamədə mədəni irsə müxtəlif təhlükələr, eləcə də iqlim dəyişikliyinin, qeyri-qanuni miqrasiya və silahlı münaqişələrin təsirləri diqqətə çatdırılıb, bu sahələrdə birgə fəaliyyətin zəruriliyi vurğulanıb.

Azərbaycan-UNESCO əməkdaşlığına toxunan F.Cəfərov qurumun İpək Yolları Proqramından, İpək Yolu Xəzər-Volqa Dəhlizi İkinci İllik Subregional Konfransından, "Volqa-Xəzər İpək Yolu Dəhlizi"nin Ümumdünya İrs Siyahısına namizədliyindən danışıb, Azərbaycanın mədəni irsin qorunması sahəsində gördüyü işlərdən söz açıb.

"Mədəniyyətin qorunub saxlanmasına sədaqətimiz təbii olaraq iqlim dəyişikliyi kimi qlobal problemlərin həllini əhatə edir. COP28 konfransında 30-dan çox hökumət hökumətlərarası və mədəniyyət təşkilatları ilə birlikdə "Mədəniyyətə əsaslanan İqlim Fəaliyyətinin Dostları qrupu"nu (GFCBCA) yaratdı. Bu səy iqlim böhranının həllində mədəniyyətin rolunun tanınmasında mühüm addımdır. Qrup Azərbaycan, Braziliya və Birləşmiş Ərəb Əmirliklərinin birgə sponsorluğu ilə 2-ci Yüksək Səviyyəli Nazirlər Dialoqu üçün COP29-da yenidən toplanacaq", - deyə F.Cəfərov bildirib. Vurğulayıb ki, Azərbaycanın COP29-a sədrliyi zamanı, həmçinin mədəniyyəti müsbət iqlim fəaliyyətinə qlobal güc kimi təbliğ etmək məqsədilə "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" (C4C) təşəbbüsü işə başlayacaq. C4C təşəbbüsü mədəniyyətin davranışları necə formalaşdıra biləcəyi və iqlim böhranı üçün transformativ həll yolları haqqında fikirlər təqdim edəcək.

Beynəlxalq ekspert Martin Nyumən təməli məhz Bakıda qoyulacaq, ölkəmizin COP29-a sədrliyi çərçivəsində bütün ölkələrin mədəniyyət nazirlərini bir araya gətirəcək "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" (C4C) adlı təşəbbüsün mənşəyi, məqsəd və strategiyalarını təqdim edib. Bildirib ki, Azərbaycan Mədəniyyət Nazirliyinin bu yeni təşəbbüsü "Dostlar qrupu"nun mühüm səylərini tamamlayacaq, potensialını gücləndirəcək.

Konfransda "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti" (C4C) təşəbbüsü ilə bağlı hazırlanmış video nümayiş olunub. Konfrans UNESCO-ya üzv dövlətlərin daimi nümayəndələrinin çıxışları ilə davam edib.

Aida İmanquliyeva - 85

# Şərqlə Qərbi qovuşduran alim

**İstənilən sahədə ilklərdən olmaq böyük mənəvi-tarixi dəyər daşıyır. Bu dəyəri yaradıb ardıcıllarına ötürənlər gələcəyə doğru cığır açanlardır. Yolun davamı onların uğurundan, yaratdıqları örnəklərdən, öz fəaliyyətləri ilə formalaşdırdıqları ilkin ənənələrdən çox asılıdır. Belələri gələcək nailiyyətlər üçün möhkəm təməllər inşa edirlər. Onun da taleyinə bütün qəlbi, ruhu ilə bağlı olduğu elmi fəaliyyət istiqamətinin ilklərindən olmaq qisməti yazılmışdı.**



Uzun illər şərqşünaslıq sahəsində ciddi araşdırmalar aparan, özünəməxsus tədqiqatçılıq məharəti, bir də qələminin qüdrəti ilə məşhurluq qazanan filologiya elmləri doktoru, professor Aida İmanquliyeva görkəmli alim, müəllim, tərcüməçi, ictimai xadim kimi milli elm tarixinə sanballı möhürünü vurmuş şəxsiyyətlərdəndir. Sağlığında sahib olduğu yüksək vəzifələri, elmi titulları, ictimai həyatdakı fəallığı onu həmişə ucaltmış, ümdə insani keyfiyyətləri ilə vəhdət təşkil etmiş, böyük alimi çoxlarının sevimlisinə çevirmişdir. Gözəllik, dərin zəka, mehribanlıq, qayğıkeşlik, yüksək mənəvi dəyərlər - bütün bunlar Aida xanıma xas keyfiyyətlərin toplumunu təşkil etmişdir.

## Azərbaycanın ilk qadın ərəbşünas alimi

Jurnalist ailəsində doğulub-böyümüşdü, dünyanı tanımağa başladığı anlardan ilk uşaqlıq dostları, həmsöhbətləri sırasında evlərindəki böyük kitabxanadakı ən qədim, gözəl nəşrlər də vardı. Atası milli mətbuat tariximizin görkəmli simalarından olan Nəsir Əsədulla oğlu İmanquliyev idi - sovet Azərbaycanının ən nüfuzlu mətbuat orqanlarından "Bakı", "Баку" axşam qəzetlərinin yaradıcısı və 32 il baş redaktoru olmuş mətbuat patriarxıydı.

Atasına, onun sənətinə sevgi və marağından irəli gələrək humanitar elmlərə həvəsi uşaqlıqdan böyük idi. Orta məktəbin son siniflərinə doğru, bəlkə, çoxları onun da jurnalistika sənətini seçəcəyini düşünürdü. Olsun ki, nə vaxtsa o özü də bunu qət etmişdi. Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdiyindən həmin dövrün qaydalarına görə hər hansı ali məktəbin istənilən ixtisasının qapıları bu istedadlı gənc qızın üzünə açıq idi. Orta məktəbdən məzun olduğu dövrdə baş verən maraqlı bir yeniliksə həyat yolunda lazımi təshihlərini edərək əbədi seçimini müəyyənləşdirdi.

Həmin vaxt Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsində ərəb bölməsi yenicə açılmışdı. Aida xanım İmanquliyeva bu bölmənin ilk tələbələrindən, ilk məzunlarından oldu. Aradan bir neçə il də keçəcək, bu ilkinlik ömrün başqa məqamlarında da onun qismətinə yazılacaqdı. Aida xanım Azərbaycanda ərəb ədəbiyyatşünaslıq məktəbinin ilk yaradıcılarından olacaqdı. Eyni zamanda Azərbaycan tarixində ilk qadın ərəbşünas alim kimi tanınacaqdı.

Aida İmanquliyeva ADU-nun Şərqşünaslıq fakültəsində 1957-1962-ci illərdə təhsil almışdı. O zaman bu fakültənin məzunlarına müxtəlif Şərq ölkələrində tərcüməçi kimi çalışmaq daha cəlbedici görünürdü. Keçmiş SSRİ-nin yaxın münasibətlərdə olduğu ölkələrlə birgə həyata keçirilən layihələrdə çalışmaq üçün ərəb dilini mükəmməl bilən mütərcimlərə böyük ehtiyac vardı. Bu fakültə belə kadrların hazırlanması sahəsində ən peşəkar mərkəzlərdən sayılırdı. Ona görə fakültənin məzunlarını asanlıqla xarici ölkələrə çalışmağa göndərirdilər. Aida xanımsa elm sahəsini seçdi. Məzunu olduğu ADU-nun Şərqşünaslıq fakültəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspiranturasına qəbul olundu. Yüksək elmi potensialını, perspektivlərini nəzərə alaraq onu Moskvaya - SSRİ Elmlər Akademiyasının Asiya Xalqları İnstitutunun aspiranturasında oxumağa, tədqiqatlar aparmağa göndərdilər. 1966-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə edərək elmlər namizədi alimlik dərəcəsinə layiq görüldü.

Aida xanım İmanquliyeva Bakıya qayıtdıqdan sonra onun elmi taleyi Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu ilə bağlandı. 1966-cı ildə burada kiçik elmi işçi kimi fəaliyyətə başladı. İstedadı, zəhmətsevərliyi sayəsində bir neçə il ərzində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə yüksəldi. 1989-cu ildə isə Tbilisi şəhərində doktorluq dissertasiyasını uğurla müdafiə etdi və çox keçmədən professor adına layiq görüldü.

## Şərqlə Qərbin vəhdəti

Professor Aida İmanquliyeva çoxsaylı elmi əsərlərinə əbədi ömür bəxş etmiş, bütün varlığı milli kökə bağlı şəxsiyyət olmuşdur. Onun əsərlərində xalqın maariflənməsi, milli yaddaşın qorunması, tərəqqiyə doğru irəliləməsi kimi nəcib niyyətlər özünü qabarıq göstərmişdir. Elmi tədqiqatlarını əsl alim təəssübkeşliyi ilə aparan, ərəb filologiyası sahəsində özünəməxsus məktəb yaradan Aida İmanquliyeva ərəb ədəbiyyatının bir sıra korifeylərinin yaradıcılığını tamamilə yeni rakursdan araşdıraraq onları Azərbaycan ədəbi ictimaiyyətinə tanıtmışdır. Bununla da Aida xanım ərəb və Azərbaycan ədəbiyyatları arasında sağlam körpü yaratmağa, ədəbi xəzinəmizi daha da zənginləşdirməyə çalışmışdır.

O, uzunmüddətli elmi axtarışlarının nəticəsi olan üç fundamental monoqrafiyanı ərsəyə gətirmişdi. Bunlar "Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" adlı monoqrafiyalardır. Bundan başqa, Aida xanım bir çox elmi tədqiqatlarının nəticələrini də Azərbaycanda və müxtəlif xarici ölkələrdə çapdan çıxmış 70-dən çox məqaləsində təqdim etmişdi.

Görkəmli alim öz sahəsinin ölkə hüdudlarından kənarda da tanınan təmsilçisi kimi Şərq filologiyası sahəsində yazılmış əksər elmi əsərlərin redaktoru idi. Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasına sədrlik edirdi. Keçmiş SSRİ-də fəaliyyət göstərən Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətində, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasında təmsil olunurdu. Azərbaycan şərqşünaslar məktəbinin nümayəndəsi kimi, Moskvada, Kiyevdə, Sankt-Peterburqda, Poltavada, Hamburqda, Düşənbədə, Tbilisidə və başqa şəhərlərdə keçirilən elmi konqreslərdə, simpoziumlarda, sessiyalarda dəfələrlə maraqlı məruzələri ilə şərqşünaslıq elmimizi layiqincə təmsil etmiş, xarici ölkələrdə onun tədqiqatlarından faydalanmışdılar.

Elmi araşdırmaları ilə yanaşı, Aida xanım pedaqoji fəaliyyət də göstərirdi. ADU-nun Şərqşünaslıq fakültəsinin müəllimi kimi həmin təhsil mərkəzində ərəbşünas kadrların hazırlanması ilə məşğul olurdu. Vaxtilə bu böyük alim-pedaqoqun dərslərində iştirak etmiş, mühazirələrini dinləmiş tələbələri Aida xanımı indi də çox böyük ehtiramla xatırlayırlar.

Aida xanım İmanquliyevanın araşdırmaları, əsasən, Əmin Ər Reyhaninin, Cübran Xəlil Cübranın, Mixail Nüaymənin yaradıcılığı ilə bağlıdır. Ərəb ədəbiyyatının yeni mərhələyə gəlib çatmasında onların hər birinin çox böyük xidmətləri var. Aida xanım bu yaradıcı şəxsiyyətlərlə bağlı nəinki Azərbaycanda, ümumən keçmiş ittifaq məkanında geniş tədqiqatlar aparan ilk alimlərdən idi. Onun əsərlərində bu şəxsiyyətlərin yaradıcılığı işığında ümumən Qərb və Şərq mədəni əlaqələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkülü geniş şəkildə tədqiq edilmişdi. Bu baxımdan, Aida xanımın elmi tədqiqatları, nəşr olunmuş kitabları, müxtəlif elmi mənbələrdə işıq üzü görmüş məqalələri çox böyük dəyər daşıyır. Həmin əsərləri ilə görkəmli alim təkcə şərqşünaslıq elminə deyil, həmçinin Şərq və Qərb arasında elmi-mədəni əlaqələrin qurulmasına, ortaq mənəvi dəyərlərin aşkar edilməsinə əhəmiyyətli töhfələr vermişdir.

## O, məhcər ədəbiyyatının görkəmli tədqiqatçısı idi

Aida xanım ərəb məhcər ədəbiyyatı ilə məşğul olurdu. Tədqiqatlarında məhcər ədəbiyyatının əsas xüsusiyyətlərini, onun çoxəsrlik zəngin ərəb ədəbiyyatı ilə oxşar və fərqli cəhətlərini, Qərb və rus ədəbiyyatı ilə əlaqələrini, bütövlükdə ərəb ədəbiyyatına gətirdiyi yenilikləri üzə çıxarırdı. Məhcər ədəbiyyatının müasir ərəb ədəbiyyatı üçün açdığı imkanların və digər aktual məsələlərin elmi təsvirini verirdi.

Alimin 1975-ci ildə Moskvada nəşr olunmuş ilk monoqrafiyası da Mixail Nüaymənin yaradıcılığına həsr olunmuşdur. Müəllif kifayət qədər ciddi elmi əsaslarla bu qənaəti diqqətə çəkir ki, "Qələmlər Birliyi"nin yaranması yeni ərəb ədəbiyyatının, mədəniyyətinin inkişafında müstəsna əhəmiyyəti olan yeni ədəbi məktəbin formalaşması kimi qiymətləndirilməlidir. Monoqrafiyada vurğulanır ki, M.Nüaymə, C.X.Cübran, İ.Abu Mazi... kimi görkəmli ədibləri öz sıralarında birləşdirən bu cəmiyyət ərəb ədəbiyyatının inkişafında bütöv bir mərhələ təşkil etmiş, xeyli dərəcədə onun sonrakı inkişafını müəyyənləşdirmişdir.

Aida xanım İmanquliyeva Cübran Xəlil Cübranın və Əmin ər-Reyhaninin daha çox Qərb romantizminin, Mixail Nüaymənin isə rus tənqidi realizminin təsirinə məruz qaldığını göstərmiş, bunun əsas səbəbini onların dünyagörüşü, düşdükləri mühitin ədəbi-bədii qayəsi və yaradıcılıq istiqamətləri ilə bağlamışdır. Müəllif doğru olaraq belə bir nəticəyə gəlmişdir ki, Cübran və ər-Reyhanidə R.U.Emersonun, U.Uitmenin, N.Toronun, Şellinin, Bayronun, Hüqonun təsiri daha çox hiss edildiyi halda Poltavada təhsil almış Mixail Nüaymənin bədii yaradıcılığında L.Tolstoyun, İ.Turgenevin, A.Çexovun, ədəbi-tənqidi məqalələrində isə V.Belinskinin təsiri müşahidə olunur. Görkəmli ərəbşünas alim romantik poeziyanı onun Qərbdə C.Bayron, U.Bleyk, R.Emerson, U.Uitmen, Şərqdə isə C.X.Cübran, Əmin ər-Reyhani, M.Nüaymə kimi məşhur nümayəndələrinin timsalında araşdırmış, bir tərəfdən hiss və əqlin, digər tərəfdən isə Şərq və Qərb düşüncə tərzlərinin vəhdət məqamlarını üzə çıxararaq bəşəriyyətin məhz bu vəhdətə doğru inkişaf əzmini təsbit etmişdir. Öz tədqiqatlarında poetik ruhla fəlsəfi düşüncənin, romantizmlə realizmin ittifaqından çıxış edən Aida xanım Azərbaycan ədəbi və fəlsəfi fikrində ilk dəfə olaraq Şərq və Qərb romantiklərinin müqayisəli təhlilini aparmışdır. Ümumilikdə, alimin Şərq müdrikliyi ilə Qərb həssaslığını özündə cəmləşdirən ərəb məhcər ədəbiyyatının yaranması, inkişafı, sənətkarlıq xüsusiyyətləri, onun başqa ədəbi məktəblərdən fərqli cəhətləri barədə mülahizə və fikirləri bu gün də görkəmli şərqşünaslar tərəfindən bəyənilir və qəbul edilir. Şərqşünaslıq sahəsində dövrünün dünyaşöhrətli alimləri Ziya Bünyadovun, İosif Bradinskinin, Anna Dolininanın, Valeriya Kripçenkonun, Rüstəm Əliyevin Aida xanımın elmi fəaliyyətinə verdikləri yüksək qiymət onun elmin nə qədər uca zirvəsində qərar tutduğunu göstərir.

Görkəmli elm xadimlərinin fikirlərində xüsusi qeyd olunur ki, ərəb məhcər ədəbiyyatının təmsilçilərinin həyat və yaradıcılığına həsr olunan tədqiqatlar öz orijinallığını, zənginliyini, nəzəri dərinliyini, konseptuallığını bu gün də qoruyub saxlayır. Aida xanım ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı araşdırıcısı kimi bu gün də həmin elmi istiqamətin tədqiqatçılarının əsas istinad mənbəyidir.

O, həm də gözəl tərcüməçi idi. Ərəb ədəbiyyatından bəzi nümunələri - Mixail Nüaymənin, Mahmud əz-Zahirin, Məhəmməd Dibin, Sahib Camalın, Süheyl İdrisin, Macid Zeyyib Ğənəmanın hekayələrini Azərbaycan dilinə tərcümə edərək həmin əsərlərin poetik ruhunu, məna və məzmununu olduğu kimi saxlayıb.

Elmi yaradıcılığının ana xəttini Qərb və Şərq mədəni ənənələrinin sintezinin təşkil etməsi, Şərqin neçə-neçə yazarının əsərlərini dilimizə müvəffəqiyyətlə tərcümə etməsi, bir ictimai xadim, elm təşkilatçısı kimi onun geniş dünyagörüşünü, fəaliyyətinin çoxşaxəliliyini, ən mühümü isə məşğul olduğu işə tükənməz sevgisini əks etdirir.

Aida xanımın alimliyini onun bənzərsiz mənəvi keyfiyyətləri, insanlara və dünyaya, həyata sonsuz sevgisi tamamlayırdı. Həm zahiri, həm daxili gözəlliklər, mehriban tərz, həssaslıq, yüksək mənəvi dəyərlər onun simasında cəmləşmişdi. O, bu keyfiyyətləri böyüdüyü ailə ocağından - atası Nəsir müəllimdən, anası Gövhər xanımdan əxz etmişdi. O, universitet auditoriyasında dərs keçdiyi tələbələrə, elmi rəhbər kimi yetişdirdiyi gənc alimlərə biliklər ötürməklə, ərəbşünaslıq elminin incəliklərini öyrətməklə yanaşı, həm də bu ali dəyərləri aşılayırdı. Azərbaycanda keçmiş ittifaq məkanında öz sahəsinin ən parlaq təmsilçilərindən biri kimi tanınan Aida xanım şəxsiyyət olaraq da onu tanıyan kəslər üçün əsl insanlıq mücəssiməsi idi. Onu ideal qadın obrazında görürdülər. Onu tanıyan insanların düşüncələrinə görə, həm alimliyin, həm insanlığın, həm də qadın adının zirvəsində qərar tutan hər bir xanım məhz Aida xanım İmanquliyeva kimi olmalı idi.

## Sevgi dolu incə, səxavətli qəlb

Aida xanım böyük alim, hər dərsi maraqla dinlənilən unudulmaz müəllim, bacarıqlı elm təşkilatçısı olmaqla yanaşı, eyni zamanda Azərbaycan üçün ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı, M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, akademik Nərgiz xanım Paşayevanı dünyaya gətirərək böyütmüş fədakar ana idi. Azərbaycanın böyük ziyalılarından biri, ölkəmizdə ilk Milli Aviasiya Akademiyasının yaradıcısı, akademik Arif Paşayevin vəfalı ömür-gün yoldaşı idi. Aida xanım İmanquliyevanın malik olduğu ali keyfiyyətlər, təlqin etdiyi ali dəyərlər bu gün Mehriban xanım Əliyevanın Azərbaycan və ümumilikdə bəşəriyyət üçün gördüyü nəcib işlərdə, işıqlı əməllərdə öz ifadəsini tapır. "Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi" - Mehriban xanım onu yetirmiş ananı belə xatırlayır - "O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünyaşöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi".

Aida xanım kimi insanlar haqqında düşündükcə bir daha əmin olursan ki, həyatda yaxşılıqlar, ülvi arzular heç zaman itmir, qəlbində, əməllərində bu yaxşılıqları böyüdənlərin, o arzuları yaşadanların davamçılarına ötürülür və zaman-zaman onların xoş niyyətləri gerçəkliyə çevrilir. Əfsuslar olsun ki, həyat Aida xanıma uzun yaşamağa macal vermədi. Alim üçün də, müəllim üçün də, insan üçün də ömrün ən gözəl çağlarından sayılan yaşda - cəmi 53 yaşında bizi tərk etdi. Amma Aida xanımın arzuları, dəyərləri bu gün Azərbaycana töhfə verən hər kəsin, o cümlədən bir Ana kimi onun yetirdiyi övladların əməllərində yaşayır və bu, görkəmli alimin, Azərbaycan qadınının da xatirəsini yaşadır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

---

*İƏT-in mərkəz direktoru:*

## "Azərbaycan və Türkiyə ailə ilə bağlı eyni dəyərlərə malikdirlər"



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İslam Ölkələri Statistika, İqtisadi və Sosial Araşdırmalar və Tədris Mərkəzinin (SESRIC) baş direktoru Zehra Zümrüt Selçukla görüşüb.

Komitədən AZƏRTAC-a bildirilib ki, İƏT ilə Azərbaycan arasındakı mövcud sıx əlaqələrin bundan sonra da gücləndirilməsi istiqamətində səylərin vacibliyini qeyd edən Bahar Muradova, həmçinin mərkəz tərəfindən həyata keçirilən genişmiqyaslı layihələri yüksək qiymətləndirib.

İslam ölkələrində ailə institutunun qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi sahəsində əldə olunan nailiyyətlərə diqqət çəkən Komitə sədri bu uğurların təşkilata üzv ölkələrin və xalqların həyatı üçün vacibliyini qeyd edib.

Komitə sədri vurğulayıb ki, bu cür görüşlərdə müxtəlif sahələrdə maraqların yaxınlığına əsaslanan hərtərəfli əlaqələrin inkişaf etdirilməsi və daha sistemli fəaliyyət göstərilməsi baxımından iki qurum arasında iş planının qəbul edilməsi işçi qrupların yaradılması baxımından böyük əhəmiyyət daşıyır.

Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi, həmçinin digər türk dövlətlərinin müvafiq Nazirlikləri ilə Dövlət Komitəsi arasındakı sıx əməkdaşlıq barədə danışan B.Muradova bu qarşılıqlı fəaliyyətin həm Türk Dövlətləri Təşkilatını daxilən möhkəmləndirdiyini, həm də İslam Əməkdaşlıq Təşkilatının sözügedən istiqamətdə fəaliyyəti ilə üst-üstə düşdüyünü bildirib.

Ölkədə fəaliyyət göstərən qurum və təşkilatlarla əməkdaşlıq çərçivəsində mütəmadi olaraq ailələrin gücləndirilməsi, gender bərabərliyinin təmin olunması, biznes subyektlərinin yaradılması, ailələrin məşğulluğunun təmin edilməsi kimi işlərin həyata keçirildiyini qeyd edən B.Muradova, bu istiqamətdə qarşılıqlı təcrübə mübadiləsini də yüksək qiymətləndirib.

SESRIC-in baş direktoru Zehra Zümrüt Selçuk qardaş ölkə Azərbaycan ilə keçmişdən bu günə çox gözəl və faydalı əlaqələrin mövcud olduğunu vurğulayıb. O, təmsil etdiyi beynəlxalq təşkilatın fəaliyyəti haqqında ətraflı məlumat verib.

Xüsusilə də statistik araşdırmalar və təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdıran direktor qadın və uşaqların pontensialının gücləndirilməsi üçün təlimlərin və kursların təşkil edildiyini, nəticələrə dair hesabatların hazırlandığını bildirib.

Azərbaycanın və Türkiyənin ailə ilə bağlı eyni dəyərlərə malik olduğunu vurğulayan SESRIC rəsmisi qeyd edib ki, dünyada baş verən hadisələr fonunda ailə kimliyinə önəm verilməsi və əhəmiyyətinin önə çıxarılması bu gün çox vacib məsələdir.

Görüş Dövlət Komitəsi ilə İƏT-in İslam Ölkələri Statistika, İqtisadi və Sosial Araşdırmalar və Tədris Mərkəzinin gələcək əməkdaşlığı çərçivəsində həyata keçiriləcək tədbir və layihələrin müzakirəsi ilə davam edib.

---

## UNESCO Rabat şəhərini 2026-cı ildə dünyanın kitab paytaxtı elan edib



UNESCO-nun baş direktoru Odri Azule Ümumdünya Kitab Paytaxtı Məşvərət Komitəsinin tövsiyəsi əsasında Rabatın (Mərakeş) 2026-cı il üçün Dünya Kitab Paytaxtı seçildiyini elan edib.

AZƏRTAC təşkilatın saytına istinadla xəbər verir ki, baş direktor deyib: "2025-ci ildə Rio-de-Janeyrodan sonra Rabatın 2026-cı il üçün Dünya Kitab Paytaxtı elan edildiyini elan etməkdən məmnunam. Rabat kitabların bütün müxtəlifliyi ilə bilik və incəsənət mübadiləsinə kömək edən mədəniyyət mərkəzidir. Artan yerli kitab sənayesi də təhsilin inkişafında mühüm rol oynayır. Bu fəaliyyətlər UNESCO-nun mandatına uyğun həyata keçirilir".

Rabatda 54 nəşriyyat evi, Afrikada üçüncü ən böyük beynəlxalq kitab və nəşriyyat yarmarkası və getdikcə artan kitab mağazaları var. Bu şəhərin kitab sənayesi təkcə yaradıcı iqtisadiyyatının mühüm hissəsi deyil, həm də biliyin dərinləşdirilməsinə töhfədir. UNESCO və Ümumdünya Kitab Paytaxtı Məşvərət Komitəsi Rabatı ədəbi inkişafa, mütaliə vasitəsilə qadınların və gənclərin səlahiyyətlərinin artırılmasına, savadsızlıqla mübarizəyə, xüsusən də icmalar arasında aydın öhdəliyinə görə bu titula layiq görüb.

2026-cı il üçün Dünya Kitab Paytaxtı olacaq Rabat kitablara çıxışı artırmaq və yerli nəşriyyat sənayesini dəstəkləməklə davamlı iqtisadi artımı və sosial faydalar kontekstində bir sıra təşəbbüslər həyata keçirəcək. Xüsusilə, şəhər rəhbərliyi bütün sakinlərin savadını artırmaq üçün böyük bir proqram təqdim edəcək.

Tədbirlərin açılışı 2026-cı il aprelin 23-də, Ümumdünya Kitab və Müəllif Hüquqları Günündə olacaq.

# Tarixi əməkdaşlıq və müttəfiqlik

## Azərbaycan-Rusiya münasibətləri müsbət istiqamətdə inkişaf edir

**Azərbaycan və Rusiya arasında münasibətlər müsbət inkişaf edir, hərtərəfli əlaqələr genişlənir. İqtisadi əməkdaşlığa gəldikdə, buraya da getdikcə daha çox sahənin qoşulduğu müşahidə olunur. Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasında səfərdə olarkən həmin ölkənin Prezidenti Vladimir Putinlə görüşü münasibətlərin hazırkı statusu ilə bağlı bir sıra məsələlərə toxunmağa imkan yaratdı.**

Rusiya ilə Azərbaycan arasında ticarət və energetika, sənaye və kənd təsərrüfatı, logistika, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlıq genişlənir. Hər iki tərəfdən səmərəli dövlət dəstəyi ilə investisiya əlaqələri də güclənir. Təsadüfi deyil ki, bu gün Rusiya Azərbaycan üçün ən mühüm investorlardan və ən böyük ticarət tərəfdaşlarından biridir. Neft ixracında hətta ən böyük tərəfdaşdır.

Prezident Vladimir Putin də məhz bunları nəzərdə tutaraq dedi: "Münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi 4 dəfədən çox - 4,3 milyard dollardır. Bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur. Energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var. Onların hamısı perspektivlidir, realdır, həm ikitərəfli, həm də çoxtərəfli layihələr aktualdır".

Bu, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iki ay əvvəl keçirilən 22-ci iclasında da vurğulanmışdı. Burada iqtisadi sahədə qarşılıqlı fəaliyyətin müasir tendensiyaları şərh olunmuşdu.

Onu da xatırladaq ki, 2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb. Sənəddə bildirilir ki, tərəflər iki ölkənin ticarət-iqtisadi əlaqələrinin davamlı artımının təmin edilməsi üçün vacib əhəmiyyəti olan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işinə hərtərəfli yardım göstərməyə davam edəcəklər. Həmçinin qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətindədirlər. Tərəflərin milli qanunvericilikləri çərçivəsində metallurgiya, neft-qaz və ağır maşınqayırma, aviasiya, avtomobil, kimya, əczaçılıq və yüngül sənaye, kənd təsərrüfatı, yol-tikinti və qida maşınqayırması müəssisələri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinə imkan yaradacağı da qeyd olunur. İntellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə edilməklə tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafı, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin davamlı və tammiqyaslı fəaliyyəti üçün texniki və iqtisadi şəraitin təmin edilməsi hədəfə alınır. Beynəlxalq enerji əməkdaşlığının stimullaşdırılması və qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə sıx qarşılıqlı fəaliyyət həyata keçirərək yanacaq-energetika sahəsində, o cümlədən səmərəli infrastruktur layihələrinin cəlb edilməsi də daxil olmaqla neft-qaz yataqlarının kəşfiyyatı və emalı, enerji resurslarının nəqli sahəsində, eləcə də alternativ və bərpaolunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində əməkdaşlığı dərinləşdirmək niyyəti ifadə olunur. Tərəflərin aqrar-sənaye kompleksi sahəsində, o cümlədən kənd təsərrüfatı məhsulları ilə təchizetmə, kənd təsərrüfatı məhsullarının istehsalının, emalının və saxlanmasının aparıcı texnologiyalarından istifadə məsələləri, eləcə də fitosanitar normalara əməletmə üzrə əlaqələrin inkişafına və təcrübə mübadiləsinə yardım edəcəkləri də göstərilir.



Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclasının yekunları göstərdi ki, hər sahədə qarşıya qoyulan məqsədlərə nail olunur. Belə ki, ötən il iki ölkə arasında ticarət dövriyyəsi rekord rəqəmlərə çatıb və bu tendensiya davam edir. Ərzaq və kənd təsərrüfatı xammalı, neft, metal və plastik məhsullarının qarşılıqlı ticarəti də artır. Üstəlik, qarşılıqlı hesablaşmaların təxminən dörddəüçü ilə həyata keçirilən milli valyutalar əsasında ticarət də inkişaf edir. İkitərəfli yükdaşımalar nəzərəçarpacaq dərəcədə artıb və turist axını intensiv şəkildə davam edir. Azərbaycanda Rusiya biznesi ilə əczaçılıq və neft-kimya, qida sənayesi və şərabçılıq, mədən sənayesi və tikinti materiallarının istehsalı, avtomobil sənayesi və avadanlıqlara texniki xidmət sahələrində əməkdaşlığın uğurlu nəticələri qeydə alınıb. Xüsusilə "Lada" və "Qazel", "KamAZ" və "Ural" avtomobilləri üçün servis dəstəyi göstərilir. Bununla yanaşı, perspektivli sahələr arasında gəmiqayırma, metallurgiya, turizm və digərlərini qeyd etmək lazımdır. Öz növbəsində Azərbaycan sahibkarları Rusiyada aqrobiznes, meşə təsərrüfatı və turizmə, o cümlədən Xəzər dənizinə fəal şəkildə sərmayə qoyurlar. Ekspertlər gələcəkdə yüksəktexnologiyalı istehsala və Rusiyanın İT sektoruna Azərbaycandan sərmayə qoyulacağını da gözləyirlər.

Təqdirəlayiq haldır ki, bu iki ölkənin regionları arasında da əməkdaşlıq inkişaf edir. Cari ildə Stavropolda genişmiqyaslı Rusiya-Azərbaycan Regionlararası Forumu, müxtəlif regionlarda digər tədbirlər keçirilib. Artıq yüzlərlə Rusiya şirkətinin nümayəndəsi Azərbaycanla əməkdaşlıq imkanları ilə tanış olub. Məsələn, ötən aylar Kirov rayonundan olan 9 iri istehsalat şirkətinin nümayəndələri Bakıya işgüzar səfərlər zamanı ixracın təşkilinə yönəlmiş onlarca görüş keçiriblər. Həmçinin Krasnoyarsk diyarının, Çuvaşiya, Novosibirsk və Ulyanovsk vilayətlərinin, Altay diyarının və Rusiyanın digər vilayətlərinin nümayəndələri Bakıda olub, Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə böyük maraq göstəriblər.

Bütün bu nailiyyətlərin əldə olunmasında iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri, müsbət şəxsi münasibətləri mühüm rol oynayır. Prezident İlham Əliyev oktyabrın 7-də Rusiya Prezidentinə Azərbaycana bu ilin avqust ayındakı səfərini xatırladaraq dedi: "Sizin dövlət səfərinizdən sonra ikitərəfli münasibətlərimizin dinamikası kifayət qədər nəzərə çarpır. Avqust ayında Bakıda əldə olunmuş qərarların yerinə yetirilməsi çərçivəsində artıq müxtəlif strukturların nümayəndələri səviyyəsində, hökumət üzvləri arasında çoxlu təmaslar olub. Siz qeyd etdiyiniz kimi, bu gün həmin məsələləri nəzərdən keçirmək üçün yaxşı imkan var, çünki gündəliyimiz kifayət qədər genişdir və həmin layihələr, xüsusən avqust ayında Bakıda nəzərdə tutduqlarımız, əlbəttə ki, bizim daimi diqqət və nəzarətimizi tələb edir. Beləliklə, bu gün gündəliyə nəzər salmaq və iki ölkə arasında əldə olunmuş həmin razılaşmaların yerinə yetirilməsi üzrə konkret addımları müəyyənləşdirmək üçün yaxşı fürsətdir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycanın daha bir qurumu beynəlxalq mükafat aldı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) növbəti beynəlxalq uğurunu qazanıb.**

Qurum bu dəfə Böyük Britaniyanın "Innovation in Business" təşkilatının 2024-cü il üzrə "Texnoloji İnnovator" müsabiqəsində "2024-cü ilin Əmək Münasibətləri Elektron Altsistem Həlləri Təminatçısı" adına layiq görülüb.

Xidmətin son bir ildəki fəaliyyəti, Əmək və Məşğulluq Altsistemi (ƏMAS) barədə təqdim edilən məlumatlar müsabiqənin tədqiqat komandası tərəfindən yüksək qiymətləndirilib.

Müsabiqənin əsas məqsədi texnologiya, media və korporativ innovasiyalar sahəsindəki yenilikləri işıqlandırmaq və ictimaiyyətə təqdim etməkdir.

Qeyd edək ki, bu, DƏMX-nin 2024-cü ildə layiq görüldüyü sayca 4-cü beynəlxalq mükafatdır.

## Bu il Dövlət Vergi Xidmətindən büdcəyə daxilolmalar 12 milyard manatı ötüb

**Cari ilin yanvar-sentyabr ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 12 milyard manatdan çox vergi daxil olub.**

Dövlət Vergi Xidmətinin məlumatına görə, qeyri-neft-qaz sektorundan daxilolmalar 8 milyard 417,5 milyon manat təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 991,7 milyon manat və ya 13,4 faiz artıb.

Ödənilən vergilərin 70 faizi qeyri-neft-qaz sektorunun, 30 faizi isə neft-qaz sektorunun payına düşüb.

## AZSTANDART beynəlxalq "Halal" sertifikatını təqdim etmək hüququ qazanıb

**Azərbaycan Standartlaşdırma İnstitutunun "AZSTANDART Halal" Sertifikatlaşdırma Orqanı Türkiyənin Halal Akkreditasiya Qurumu (HAK) tərəfindən akkreditasiya olunub.**

Bununla AZSTANDART beynəlxalq akkreditasiya tələblərinə cavab verən "Halal" sertifikatını təqdim etmək hüququnu əldə edib.

Azərbaycan Standartlaşdırma İnstitutundan bildirilib ki, "Halal" sertifikatının verilməsində əsas məqsəd istehsal olunan məhsul, xidmət və idarəetmə sistemlərində müvafiq qaydaların tətbiqi və istifadəsinə şəraitin yaradılması, istehlakçıların halal məhsullar üzrə tələb və gözləntilərinin təmin edilməsi və həmin məhsullarla bağlı etimadın formalaşdırılması, eləcə də halal məhsulların dövriyyəsinin stimullaşdırılmasıdır.

## Türkiyədən Azərbaycana sement ixracı artıb

**Cari ilin yanvar - sentyabr aylarında Türkiyənin Azərbaycana sement məhsulları ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 7,7 faiz artaraq 39 milyon 693 min dollara bərabər olub.**



"Trend" xəbər verir ki, bu barədə TurkicWorld-ə Türkiyə Ticarət Nazirliyindən bildiriblər.

"Bu ilin sentyabr ayında Türkiyə Azərbaycana 5 milyon 194 min dollarlıq sement məhsulları ixrac edib ki, bu da keçən ilin sentyabr ayı ilə müqayisədə 8,8 faiz çoxdur", - deyə nazirlikdən bildirilib. Həmçinin açıqlanır ki, ötən ay Türkiyə ümumilikdə 377 milyon dollar məbləğində sement ixrac edib ki, bu da keçən ilin sentyabr ayı ilə müqayisədə 1,4 faiz azdır.

2024-cü ilin yanvar-sentyabr aylarında isə Türkiyənin dünya bazarlarına sement ixracının dəyəri 2023-ci ilin eyni ayı ilə müqayisədə 7,7 faiz azalaraq 3,3 milyon dollara bərabər olub.

## Sosial Xidmətlər Agentliyi tərəfindən daha 20 məhkumun qiymətləndirilməsi aparılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə adaptasiyası məqsədilə növbəti görüş təşkil edilib.**



Ədliyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində 1 saylı cəzaçəkmə müəssisəsində keçirilən tədbirdə agentliyin fəaliyyət istiqamətləri, məhkumların sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər barədə məlumatlar verilib. Eləcə də narkomaniya ilə mübarizə və narkotikdən əziyyət çəkən şəxslərin sağlam sosial həyata inteqrasiyası istiqamətində təqdimat edilib.

İştirakçılar Agentliyin Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzində göstərilən xidmətlərlə tanış edilib. Mərkəzdə müvafiq kateqoriyadan olan şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması məqsədilə işlərin aparıldığı, sosial-psixoloji, tibbi-sosial, sosial-məsləhət yardımı və sosial-məişət xidmətləri ilə təmin edildikləri qeyd olunub. Onların sosial-psixoloji reabilitasiyası və adaptasiyası tədbirləri, "Sosial işin idarə edilməsi" ("Keys Menecment") sistemi haqqında çıxışlar edilib.

Məhkumluqdan azad olunmasına üç ay qalan 20 şəxsin anket sorğusu əsasında qiymətləndirilməsi də aparılıb. Məhkumluqdan azad olunduqdan sonra onların sosial-psixoloji yardım xidmətinə cəlb edilməsi nəzərdə tutulur.

## Rəqəmsallaşma KOB-ların fəaliyyətini keyfiyyətcə yeni mərhələyə yüksəldir

**Sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilib və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının mərkəzində durur. Bu, hazırda cəmiyyətin inkişafında innovativ yanaşmalar tələb edən bir strategiyadır.**



Müasir cəmiyyət informasiya ilə bol olduğu üçün innovasiyalı iqtisadiyyatın qurulması dayanıqlı inkişafa xidmət edən mühüm şərtdir. Bu baxımdan informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqi və elektron xidmətlərin, həmçinin informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsi, cəmiyyətin informasiya məhsul və xidmətlərinə tələbatının dolğun ödənilməsi, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması və bu sahədə kadr ehtiyatlarının yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilir.

Azərbaycanda İKT sektorunun inkişafında, iqtisadiyyatda yeni və qabaqcıl texnologiyaların tətbiq edilməsində mühüm təşəbbüslər həyata keçirilir. Həmin sahədə sürətli inkişafa töhfə verən əsas şərtlərdən biri dövlət dəstəyidir. Dövlət dəstəyi həm sahibkarlıq subyektləri, həm də əmək bazarında fəaliyyət göstərən insan resursları üçün əhəmiyyətlidir. Bu baxımdan iki il öncə Prezident İlham Əliyevin imzaladığı sərəncamla təsdiqlənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən Kiçik və Orta Biznes (KOB) subyektlərinin rəqəmsallaşması layihəsi üzrə işlərin görülməsinə başlanması mühüm yenilik idi. Yeniliyin əsas məqsədi KOB-ların innovativ həll yolları ilə səmərəliliyinin və iqtisadi göstəricilərinin artırılması, biznes və sahibkarlıq proseslərinin optimallığının təmin olunması idi. Bundan sonra gənc sahibkarları əhatə edən bir neçə rəqəmsallaşma layihələrinə hazırlıq prosesinə başlanıldı. Bu, daha dinamik sahibkarlıq ekosistemi qurmaq və rəqəmsallaşmanın əhəmiyyəti ilə bağlı KOB-ların məlumatlılığını artırmaq üçün idi.

İqtisadiyyatın inkişafını stimullaşdıran İKT-yə KOB-ların daha da genişlənməsi, yeni üsulların tətbiq edilməsinə açılan qapı da demək olar. Bu qapıdan içəri girən heç bir sahibkar layihəsini həyata keçirməkdə çətinlik çəkmir. Nəticədə sahibkarların innovasiya sahəsində fəaliyyətlərinin daha da səmərəli olması iqtisadiyyatımızın müasir dövrdə inkişafını səciyyələndirən əsas amil kimi diqqət çəkməyə başlayır. Söz düşmüşkən xatırladaq ki, Azərbaycanda İKT üzrə hər il təxminən 3500 mütəxəssis hazırlanır. Çox yaxşı haldır ki, qlobal sahədə yeni çağırışları nəzərə alaraq, gənclər arasında bu sahəyə maraq getdikcə artır. Sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşan gənc sahibkarlar əmək bazarında "Made in Azerbaijan" markasının keyfiyyətini artırmağa çalışırlar.

Bütün bunlar o deməkdir ki, iqtisadiyyatın inkişafında innovativ yanaşmalar tələb edən rəqəmsallaşma KOB-ların fəaliyyətini keyfiyyətcə yeni mərhələyə yüksəldir və rəqabət qabiliyyətini artırır. Bunu daha geniş sərgiləmək üçün bir neçə gün əvvəl "Kiçik və Orta Bizneslərin Rəqəmsallaşması Proqramı" fəaliyyətə başlayıb. Proqramın əsas məqsədi KOB-ların rəqəmsal alətlərdən və qabaqcıl texnologiyalardan faydalanaraq rəqabət qabiliyyətini artırmaq, eləcə də bazar imkanlarını genişləndirməkdir. Proqram çərçivəsində kiçik və orta bizneslər üçün maarifləndirici seminar və təlimlərin təşkil olunması, eyni zamanda "CTO-as-a-Service" kimi təşəbbüslər vasitəsilə bacarıqların artırılmasına dəstək göstərilməsi nəzərdə tutulur. Layihə üzrə KOB-ların rəqəmsal yetkinliyi qiymətləndirilərək, ehtiyaclarına uyğun fərdi yol xəritələri hazırlanacaq. Rəqəmsallaşma təşəbbüslərinin qrantlar və digər maliyyə mexanizmləri ilə dəstəklənməsi də nəzərdə tutulur. KOB-ların rəqəmsal inkişafını sürətləndirmək məqsədilə yaradılan "digiMATE" platforması artıq 2024-cü ilin avqust ayından istifadəyə verilib.

Qeyd edək ki, dörd mərhələdən ibarət olan proqramın hazırda 3-cü mərhələsi icra olunur. Bazar araşdırması, dünya təcrübəsi və yerli KOB-ların təhlili, təchizatçılarla görüşlər və proqrama daxil olan layihələrin icrası mərhələlərindən ibarət olan proqram KOB-ların ilkin qiymətləndirilməsinin aparılması, onların gələcək rəqəmsal alətlərə olan ehtiyacının müəyyənləşdirilməsi və nəticə etibarilə daha sistemli formada dəstəklənməsi üçün əhəmiyyətli rol oynayır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Keçmişdən bu günə

# 140 ildir "yanan" tarix

## Azərbaycan yanğınsöndürənləri həm təhlükəni sovuşdurur, həm də insanları xilas edirlər

**Onları şəhərimizin küçələrində qəza işıqlarını yandırıb həyəcan siqnalı verə-verə yüksək sürətlə getdiklərini görürük.**

**Yollarında həmişə yaşıl işıq yanır, heç vaxt qırmızı işıqda dayanmırlar. Çünki onlar insanların xilasına tələsirlər. Tələsirlər ki, hadisə yerinə tez çatsınlar...**

Yəqin ki, artıq söhbətin yanğınsöndürənlərdən getdiyini bildiniz. Onlar bəzən yanğını söndürəndə öz həyatlarını riskə ataraq dara düşmüş, ölümlə üz-üzə olan insanları xilas edirlər. Məhz buna görə də yanğınsöndürənləri çətin peşə sahibləri adlandırırlar.




























### Cəmiyyətimiz onlara böyük diqqət göstərir

Oktyabrın 10-u yangısöndürənlərin peşə bayramıdır. Hər il bu günlə əlaqədar ölkəmizdə müvafiq tədbirlər keçirilir. Bu tədbirlərdə yanğınsöndürənlərin əməyi, zəhməti, igidliyi, cəsarəti və şərəfli işi yüksək qiymətləndirilir. Yanğınsöndürənlərin yarandığı tarix də çox qədimdir. 140 ilə yaxındır ki, bayramlarını yüksək səviyyədə keçirən bu peşə sahibləri ən təhlükəli yanğın hadisələrinin qarşısını alırlar. Buna görə də cəmiyyətimizdə onlara böyük diqqət və qayğı göstərilir.

Yanğınsöndürmə qüvvələrinin yaranma tarixini vərəqləyəndə maraqlı faktlarla qarşılaşdıq. Öyrəndik ki, ölkəmizdə yanğın təhlükəsizliyi xidmətinin yaranması XIX əsrin sonlarına qədər gedib çıxır. Təbiidir ki, bu da Bakıda neft sənayesinin inkişafı ilə bağlı olmuşdur. Yanğınsöndürmə qüvvələrinin yaranması dövrün, zamanın zərurətindən irəli gəlmişdi. Həmin dövrlərdə neft mədənlərində tez-tez yanğınlar baş verirdi. Baş verən yanğınların qarşısını almaq üçün isə necə deyərlər, bir mərkəzdən idarə olunan vahid qüvvə yox idi. Bütün bunları nəzərə alan Bakı şəhər Duması 1884-cü il yanvarın 11-də yanğın komandasının yaradılması haqqında qərar qəbul etmişdi. Bununla da ölkəmizdə yanğısöndürmənin fundamentinin ilk kərpicləri qoyulmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti qurulandan sonra 1918-ci il 10 oktyabr tarixli qərarı ilə Bakı Şəhər İdarəsi təsərrüfat şöbəsinin tabeliyinə keçən yeganə yanğın komandasının dövlət sistemindəki rəsmi yeri ilk dəfə olaraq müəyyən edilmişdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci rəhbərlik etdiyi dövrdə yanğın təhlükəsizliyi orqanlarının inkişafını daim diqqət mərkəzində saxlamışdır. "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır", - deyən Ümummilli Liderin ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra isə yanğın təhlükəsizliyi sisteminin davamlı inkişafını təmin edən ardıcıl tədbirlər görmüşdür. 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması ilə yanğından mühafizə sisteminin təşkilinin hüquqi əsasları müəyyən edilmişdi. Bundan sonra da həmin sahənin inkişaf etdirilməsi istiqamətində çox mühüm işlər görülmüşdür. Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli qərarı ilə Bakı Yanğın Texniki Məktəbi təsis edilmişdir. Ulu Öndər Heydər Əliyevin 2002-ci il 5 oktyabr tarixli sərəncamına əsasən, hər il oktyabrın 10-nu Yanğınsöndürənlərin Peşə Bayramı Günü kimi qeyd edirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə yaradılmış Fövqəladə Hallar Nazirliyinin tabeçiliyinə keçən DİN Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin əsasında Dövlət Yanğından Mühafizə və Dövlət Yanğın Nəzarəti xidmətləri təşkil edilmiş və onların müasir texnika və avadanlıqlarla təchizatı, təminatı, eləcə də yeni yanğın depolarının inşası prosesi geniş vüsət almışdır. Yanğınsöndürənləri peşəkarlığını və təhsillərini artırmaları üçün onlar inkişaf etmiş ölkələrə göndərilmişdilər. Dövlət başçımızın 2008-ci il 2 iyun tarixli sərəncamı ilə Bakı Yanğın Texniki Məktəbinin bazasında Fövqəladə Hallar Nazirliyi Akademiyası yaradılmışdır.

Yanğınsöndürənlərin peşə bayramları ərəfəsində Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidməti Səbail rayon hissəsinin əməkdaşları ilə görüşdük. Çətin peşə sahiblərinin xidməti ilə yaxından tanış olduq. Yanğınsöndürənlər iş başındaydılar. Hərdən küçələrdə qəza işığını yandırıb yanğın yerinə tələsən qırmızı rəngli maşınlar burada çıxışa hazır vəziyyətdə "sakitcə" dayanmışdılar. Yanğın xəbəri gələn kimi bir andaca bu maşınların mühərriki işə düşür və yanğınsöndürənlər anındaca hadisə yerinə yollanırlar.

### Yanğından zərərçəkənlərə ilkin yardım da göstərilir

İlk olaraq yanğınsöndürmə növbəsinin rəisi, daxili xidmət kapitanı Rövşən Baxışlı ilə söhbət etdik. O dedi ki, işlərinə böyük məsuliyyət və diqqətlə yanaşırlar: "Çünki bizim xidmətimizdən insanların taleyi asılıdır. Yanğın barədə zəng daxil olan kimi döyüş geyimində çıxışa hazırlaşırıq. Qısa vaxt ərzində dispetçer yol vərəqi verir, hadisənin harada olduğunu öyrənəndən sonra gedəcəyimiz istiqaməti müəyyənləşdiririk. Hadisə yerinə çatan kimi yanğınsöndürənlərimiz alovla mübarizəyə başlayır. Maksimum qısa zaman kəsiyində baş vermiş yanğının söndürülməsi istiqamətində bütün zəruri addımlar atılır, əgər darda qalan insan varsa, xilas edilir. Yanğın söndürüldükdən, insanların həyatı üçün təhlükə sovuşandan sonra geri qayıdırıq. Geri qayıdandan sonra sərf olunan su ehtiyatı mütləq bərpa olunur, texnika yanğınsöndürən maye vasitələrlə tam təchiz edilir, 10 dəqiqə ərzində maşınlar təmizlənir və əvvəlki yerinə, yəni döyüş hesabına qoyulur. Yenə də gün bölgüsünə uyğun xidmət aparılır. Burada xidmət edənlərin hamısı peşəsini sevən dövlət qulluqçularıdır. On bir ildən çoxdur bu sahədə çalışıram. Peşəmə ürəkdən bağlıyam. Çətin anlarda, dar məqamlarda köməyimizə ehtiyacı olan insanları xilas etməkdən qürur duyuruq".

Söhbətimizi Dövlət Yanğından Mühafizə Xidməti Səbail rayon hissəsinin rəisi, daxili xidmət polkovniki Etibar Nəsirovla davam etdirdik. O dedi ki, 35 ildən çoxdur bu sahədə çalışır. Son illər ərzində yanğın təhlükəsizliyi sahəsi daha sistemli şəkildə inkişaf etməyə başlayıb. Yanğından mühafizə xidmətinin maddi-texniki və normativ-hüquqi bazası möhkəmləndirilib, kadr ehtiyatının yaradılmasına, şəxsi heyətin peşəkarlığının artırılmasına xüsusi diqqət yetirilir. Bütün bu amillər isə işlərimizi xeyli asanlaşdırır, hadisə yerinə daha da tez çatmağımızı təmin edir. Səbail rayonunun Şıx və Badamdar qəsəbələrində yeni, müasir tipli yanğından mühafizə bölmələri yaradılıb. Bu amil də bizə imkan verir ki, hadisə yerinə daha tez çataq, alovu daha tez söndürək. Adını çəkdiyim qəsəbələrdə hansısa bir yanğın hadisəsi baş verərsə, yanğın olan əraziyə yanğınsöndürmə maşınları buradan yox, həmin bölmələrdən çıxır. Bu da yanğının qarşısını daha tez almağa şərait yaradır.

Yanğınsöndürənlərimiz öz peşələrinin ustalarıdırlar. Bəzən onlar yanğını söndürməklə bərabər xəsarət alılmış insanlara ilkin yardım da göstərirlər. Həkimlər özlərini çatdırana qədər əməkdaşlarımız zərərçəkənlərin qayğısına qalırlar. Keçirdiyimiz kurslar zamanı əməkdaşlarımıza ilkin yardım göstərməyin qaydalarını öyrətmişik. Bu vərdişləri mənimsəyən bütün yanğınsöndürənlərimiz ehtiyac duyulanda heç bir çətinlik çəkmədən insanlara ilkin yardım göstərirlər. Əməkdaşlarımız nə qədər təcrübəli olsalar da, gün bölgüsünə uyğun olaraq onlarla dərs və məşğələlər keçirilir. Bu, onların təcrübə və səriştələrini daha da artırır. Xidmətdə fərqlənən əməkdaşlarımızdan daxili xidmət baş leytenantı Tofiq Əsədullayev, manqa komandiri, daxili xidmət baş çavuşu Valeh Ələkbərov və daxili xidmət çavuşu yanğınsöndürən Cavidan Fərəcovun adlarını çəkmək istərdim", - deyə o əlavə edib.

### "Fövqəladə hallar uşaqların gözü ilə"

Daxili xidmət polkovniki daha sonra söhbətinə davam edərək dedi ki, yanğın hadisələrinin qarşısını almaq üçün cəmiyyət arasında Xidmətin İctimaiyyətlə əlaqə sektorunun təşkilatçılığı ilə maarifləndirmə işləri aparırlar. Həyata keçirilən maarifləndirmə işləri zamanı əhaliyə müvafiq qaydalar haqqında geniş məlumat verilir. Dövlət müəssisə və təşkilatlarında da işçilərlə görüşlər keçirilir. İşçilər yanğından mühafizə qaydaları haqqında ətraflı məlumatlandırılır. Bütün bu addımları atmaqda məqsəd baş verəcək yanğın hadisələrinin qarşısını vaxtından əvvəl almaqdır. Qeyd etdi ki, maarifləndirmə işləri təkcə ictimaiyyət arasında, müəssisə və təşkilatlarda deyil, məktəblərdə və bağçalarda da aparılır". Hər il "Fövqəladə hallar uşaqların gözü ilə" ümumrespublika yaradıcılıq müsabiqəsi keçirilir. Müsabiqəyə "Rəsm", "Plakat", "Əl işi", "Yumşaq oyuncaq", "Yanğın və qəza - xilasetmə texnikasının modeli", "İnşa", "Hekayə" və "Şeir" nominasiyaları üzrə işlər təqdim olunur. Münsiflər heyəti təqdim olunan bu nümunələri təhlil edir, oxuyur və sonda layiqincə qiymətləndirir. Qaliblərə mükafatlar, qiymətli hədiyyələr təqdim olunur. Müsabiqənin keçirilməsində əsas məqsəd uşaqlarda təhlükəsiz həyat fəaliyyəti mədəniyyətini formalaşdırmaq, eləcə də onların istedadlarını üzə çıxarmaqdır. Onu da deyim ki, müsabiqəyə təqdim olunan eksponatlardan hissəmizdə muzey yaratmışıq. Bura gələn qonaqlar muzeyə böyük maraqla baxırlar".

Söhbət zamanı onu da öyrəndik ki, Birinci Qarabağ müharibəsində yanğınsöndürənlər də böyük igidlik və qəhrəmanlıq göstəriblər. Göstərdikləri qəhrəmanlığa görə iki yanğınsöndürən Cəmil Niftəliyev və Malik Əsədov yüksək fəxri ada - Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüblər. Hər yerdə olduğu kimi, bu hissədə də torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğulların xatirəsi əziz tutulur. Onların xatirəsinə ehtiram əlaməti olaraq hissədə guşə də düzəldilib. Bundan başqa, bu gün Xəzər dənizi akvatoriyasında baş verə biləcək yanğınların söndürülməsi istiqamətində növbə çəkən yanğınsöndürmə katerinə Milli Qəhrəman Cəmil Niftəliyevin adı verilib.

Yanğınsöndürənlərlə etdiyimiz söhbətlərdən, eşitdiyimiz xoş sözlərdən, onların yüksək hazırlığından məmnun olduq. Həmişə olduğu kimi, bu il də yanğınsöndürənlər peşə bayramlarını alnıaçıq, başıuca qarşılayırlar. Arxada qalan il ərzində onlar şəhərimizin sakinlərinə layiqincə xidmət göstərmiş, onlarla insan həyatını xilas etmişdilər.

...Qırmızı rəngli maşınlar səhərki kimi yenə də öz yerlərində "sakitcə" dayanmışdılar. Biz burada olduğumuz saatlar ərzində hissəyə yanğın haqqında zəng daxil olmadı, heç bir hadisə baş vermədi. Təbiidir ki, bu, həm də aparılan maarifləndirmə işlərinin nəticəsidir. Xidmətlərinin öhdəsindən bacarıqla gələn yanğınsöndürənlərin üzləri gülürdü. Onlar peşə bayramlarını qeyd etməyə hazırlaşırdılar. Əlamətdar gün münasibətilə onları təbrik edir, yanğınsız və hadisəsiz günlər keçirməyi arzulayırıq.

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## Xilasedicilər ötən gün biri azyaşlı olmaqla 6 nəfəri xilas ediblər

Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 52 halda yanğına çıxış və 5 halda köməksiz vəziyyətdə qalma faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib.




FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.

Ümumilikdə, nazirliyin qüvvələri tərəfindən ötən sutka ərzində biri azyaşlı olmaqla, 6 nəfər xilas edilib, 1 nəfərin meyiti təhvil verilib.

## FHN-in amfibiya təyyarəsi İzmir-Aliağada yanğınsöndürmə işləri həyata keçirib

Fövqəladə Hallar Nazirliyinin (FHN) Aviasiya dəstəsinin "BE-200ÇS" amfibiya tipli təyyarəsi yanğınsöndürmə əməliyyatını davam etdirir.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əməliyyat çərçivəsində təyyarə ötən gün İzmir-Aliağa istiqamətində meşədəki yanğınla mübarizə tədbirlərinə cəlb olunaraq yanğınsöndürmə işlərini həyata keçirib.

## "TOST" dələduzluq piramidasına qarşı əməliyyat keçirilib

Daxili İşlər Nazirliyinin (DİN) Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi sosial şəbəkələrdə onlayn dələduzluq piramidası olan "TOST" platforması vasitəsilə insanların kütləvi şəkildə aldadılaraq pul vəsaitlərinin ələ keçirildiyi barədə daxil olan məlumatlar əsasında əməliyyat-texniki tədbir həyata keçirib.




Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nəticədə piramidaya başçılıq edən şəxslərdən biri 1981-ci il təvəllüdlü Namiq Cabbarzadə saxlanılıb. Digər şəxs 1989-cu il təvəllüdlü Sahib Hüseynovun isə ölkə hüdudlarından kənarda olduğu müəyyən edildiyindən barəsində axtarış elan olunub.

Müəyyən edilib ki, N.Cabbarzadə və S.Hüseynov "TOST"a yatırım edən şəxslərə guya onların pul vəsaitləri hesabına süni intellekt vasitəsilə elektron birjada kriptovalyuta alqı-satqısı həyata keçirildiyini və nəticədə yüksək faizli qazanc əldə edəcəkləri barədə şirnikləndirici vədlər veriblər. Piramidaya daxil olan şəxslərdə inam yaratmaq və digərlərini də bu platformaya qoşmaq məqsədilə ilk dövrlərdə zərərçəkənlərə kiçik simvolik məbləğlərdə pullar əldə etmək üçün şərait yaradılıb, faizlərin vaxtında ödənildiyi, eləcə də özlərinin "TOST"dan qazandıqları gəlirlər hesabına lüks həyat tərzi keçirdikləri barədə reklam xarakterli paylaşımlar edilib.

Yatırım edən şəxslərin qarşısında qoyulan digər tələb isə onlara göndərilən dələduzluq piramidasının linklərini "Vatsap" ani mesajlaşma tətbiqi vasitəsilə qruplarda yaymaqdan ibarət olub. Müxtəlif üsullarla "TOST"a cəlb edilən şəxslərin ödənişləri hesabına N.Cabbarzadə və S.Hüseynov zərəçəkənlərin 5 milyon manata yaxın pul vəsaitlərini ələ keçiriblər. Həmin vəsaitlər isə dəstə başçıları tərəfindən kriptovalyuta formasına çevrildikdən sonra elektron pul kisələrinə köçürülüb.

N.Cabbarzadənin ünvanına baxış keçirilən zaman iş üzrə əhəmiyyət kəsb edən maddi və elektron sübutlar aşkarlanaraq götürülüb. Faktlarla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. N.Cabbarov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Dələduzluq piramidasında iştirak edən digər şəxslərin də müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində tədbirlər davam etdirilir.

Sonda qeyd edək ki, "TOST" dələduzluq piramidası vasitəsilə zərərçəkən vətəndaşlar polis orqanlarına müraciət edə bilərlər.

# Aİİ rektoru beynəlxalq forumda çıxış edib





**Oktyabrın 8-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə ölkəmizdə Azərbaycan Halal Biznes və Turizm Forumu (AZHAB Forum) öz işinə başlayıb.**

Aİİ-nin rektoru dosent Aqil Şirinov forum çərçivəsində "Halal sənayesində davamlılıq: "Yaşıl" yeni halaldırmı?" mövzusunda keçirilən paneldə məruzə ilə çıxış edib. Rektor "The Relationship between the Terms of Halal and Green" ("Halal" və "yaşıl" terminləri arasında əlaqə") mövzusundakı məruzəsində təbiətin və ekosistemin qorunmasının dini baxımdan əhəmiyyətindən bəhs edib. O, "halal" məfhumunun yalnız yemək-içmək və geyinmək kimi gündəlik ehtiyaclarımızla bağlı olmadığını vurğulayaraq, islam dinində halala təşviq edən digər vasitələr barədə danışıb. A.Şirinov bildirib ki, islam dinində təbiəti, ekosistemi qorumaq Allahın bizə ərməğan etdiyi dəyərləri mühafizə etmək kimi dərk olunmalıdır.

Rektor bu anlayışın "Qurani-Kərim"də "əmanət" kəlməsi ilə ifadə edildiyini, mənasının isə məsuliyyət olduğunu nəzərə çatdırıb. Ali təhsil müəssisəsinin rəhbəri vurğulayıb ki, dünya Allahın insana bir əmanətidir və hər bir şəxs bu dəyəri qorumalıdır. Bu baxımdan, islam ənənəsində təbiətin qorunması Allahın əmanətinin hifz edilməsi kimi qəbul olunub.

Rektor dinimizdə təbiətin və ekosistemin məhvinə aparacaq bütün vasitələrin qadağan olunduğunu, həmçinin təbiətin və ekosistemin qorunması istiqamətində lazımi tədbirlərin görülməsinin vacib olduğunu diqqətə çatdırıb. İslam Peyğəmbərinin hədislərində ağacların əkilməsinin təşviq edildiyini, suların çirkləndirilməsinin qadağan olunduğunu vurğulayıb.

Aİİ-nin rektoru "Qurani-Kərim" və hədislərdə qeyd olunan məsələlərin öz əksini aydın şəkildə tapdığını vurğulayaraq, ekosistemin qorunmasının yalnız bəşəri deyil, həm də dini amil olduğunu nəzərə çatdırıb.

Məlumat üçün qeyd edək ki, forumda dünyanın müxtəlif regionlarından 20-yə yaxın ölkədən rəsmi şəxslər, mütəxəssislər, akademik dairələr, beynəlxalq təşkilatların nümayəndələri və iş adamları iştirak edirlər.

Qeyd edək ki, iki gün davam edəcək forumda erməni işğalı zamanı Qarabağın maddi-mədəni irsinə, regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən zərər haqqında məlumatların geniş ictimaiyyətə çatdırılması məqsədilə Qarabağ Dirçəliş Fondunun "Qarabağda urbisid" fotosərgisi də nümayiş etdirilir.

*"Azərbaycan"*

# Paris Moskva ilə müharibəyə hazırlaşır

## "Daçian Spring" təlimləri Rusiya üçün strateji siqnaldır





**2025-ci ildə Fransa NATO-nun Rumıniyada keçirilən genişmiqyaslı təlimlərində Rusiya ilə müharibəyə hazır olduğunu sübut etməyi planlaşdırır.**

Bu barədə məlumat verən "Politico" nəşri fransız generalı Bertran Tujusun sözlərini sitat gətirib: "Əvvəllər biz müharibə oyunu oynayırdıq. İndi isə konkret düşmənimiz var və biz birgə döyüşəcəyimiz insanlarla məşq edirik".

Materialda o da qeyd olunub ki, təlimlər zamanı Fransa müttəfiqləri ilə birlikdə hər hansı bir hadisə baş verərsə, orada Rusiya ilə qarşı-qarşıya gəlmək üçün qoşunların Şərqi Avropaya köçürülməsini təcrübədən keçirəcək.

Bundan əlavə, yazıda 2027-ci ilə qədər Fransanın öz silah və sursatları ilə bütöv bir diviziya hazırlayacağı göstərilir. Generalın sözlərinə görə, "Daçian Spring" təlimləri Rusiya üçün strateji siqnaldır.

Son illərdə Fransanın quru qoşunları Ukraynadakı kimi münaqişəyə hazır olmaq üçün dərin transformasiyaya başlayıb. NATO-nun yeni direktivlərinə görə, 2027-ci ilə qədər Fransa ordusu lazımi sursat və təchizat xətləri ilə təmin olunmaqla cəmi bir ay ərzində tam döyüşə hazır diviziya yerləşdirə bilməlidir. "Dacian Spring" təlimləri bu iddialı planın həyata keçirilməsində mühüm mərhələ olacaq.

Bununla əlaqədar Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirib ki, NATO Rusiyaya qarşı hərbi əməliyyatların mümkün variantlarını hazırlayır. Onun sözlərinə görə, alyans Rusiya ilə potensial hərbi münaqişəyə hazırlaşdığını daha gizlətmir. Artıq regional müdafiə planları təsdiq edilib və hərbi komandanlıqlar üçün konkret tapşırıqlar formalaşdırılıb. Qoşunların köçürülməsi üçün logistik marşrutlar sınaqdan keçirilir, silah anbarları formalaşdırılır, kontingentlər yerləşdirilir. Rusiya dəfələrlə qeyd edib ki, NATO qarşıdurma məqsədi daşıyır, lakin alyansın daha da genişlənməsi Avropanın təhlükəsizliyini gücləndirməyəcək.

Kreml həmçinin vurğulayıb ki, Moskva heç kimi təhdid etmir, baxmayaraq ki, o, Rusiya Federasiyasının maraqları üçün potensial təhlükəli hərəkətləri cavabsız qoymayacaq. Məsələn, Prezident Vladimir Putin Rusiyanın Avropaya mümkün hücumu barədə deyilənləri cəfəngiyyat adlandırıb və qeyd edib ki, bu cür bəyanatlar silahlanma yarışına haqq qazandırmağa xidmət edir. Öz növbəsində Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, Moskvanın NATO ölkələrinə və ya başqalarına hücum etmək planları olmayıb və yoxdur. Rusiyanı birbaşa təhlükə elan edən məhz Qərb olub.

Xatırladaq ki, bir müddət əvvəl fransalı müxalif siyasətçi, "Vətənpərvərlər" Partiyasının sədri Florian Filippo həmvətənlərini birləşməyə və Makron hakimiyyətinin ölkəni Rusiya ilə hərbi qarşıdurmaya sürükləməsinin qarşısını almağa çağırıb.

O, NATO hərbi təlimatçılarının Ukraynaya göndərilməsini "dünya müharibəsinə hazırlıq" adlandırıb.

Siyasətçinin dediyinə görə, onun tərəfdarları üçüncü dünya müharibəsinə çəkilməyə etiraz etmək üçün "kütləvi şəkildə küçələrə çıxan yeganə insanlardır". Partiya lideri bundan sonra da təslim olmayacağını və sülh üçün mübarizə aparacağını bildirib.

Filippo fransızları "ölkəni silkələməyə" çağırıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Revanşistlərin keşiş planı iflasa uğrayır

## Baqrat Qalstanyanla bağlı dələduzluq ittihamı yenidən aktuallaşıb





**Xaricdəki siyasi dairələrin ssenarisi əsasında Kanada vətəndaşı olan keşiş Baqrat Qalstanyanın rəhbərliyi altında revanşist qüvvələrin Ermənistanda keçirdikləri etiraz aksiyaları dünən də davam edib.**

Şüarlar səsləndirməklə kifayətlənməyən radikallar bütün ölkədə küçələri və magistral yolları bağlamağa cəhdlər göstəriblər. Etirazçılar həbsxana jileti geyindirilmiş baş nazir Nikol Paşinyanın müqəvvasını yandırmağa çalışsalar da, polis buna icazə verməyib. Etiraz edən vətəndaşlarla polis arasında dava düşüb. Etirazçılar "Ar olsun, satqınlar" şüarları səsləndiriblər.

Təxribatçı keşiş və tərəfdarları daha sonra Ermənistan Baş Prokurorluğunun binası yaxınlığında etiraz aksiyası təşkil ediblər. Onlar Ermənistanın baş prokuroru Anna Vardapetyanla görüş tələb ediblər.

Baqrat Qalstanyan etiraz aksiyası zamanı bildirib ki, bizə indicə məlumat verdilər ki, prokurorluğun hansısa nümayəndəsi bizi mediasız qəbul etməyə hazırdır: "Bu, ümumiyyətlə, ünsiyyət forması deyil. Bu insanlar üz-üzə ünsiyyət qurmaqda çətinlik çəkirlər. Əgər sizdə məmur, əməkdaş şüuru varsa, o zaman enib burada təqdim etdiyimiz suallara cavab verin. Bu işlər baş prokurora ünvanlanır və o, cavab verməlidir. Biz, sadəcə, baş prokuroru gözləyirik".

Sosial şəbəkələrin ermənidilli seqmentində aksiyalardan maraqlı görüntülər paylaşılıb. Belə ki, etiraz aksiyası zamanı adı açıqlanmayan keçmiş deputatlardan biri ilə erməni polis zabiti arasında dava düşüb. Polis əməkdaşı binanın qarşısında toplaşanları asayiş keşikçilərini təhqir etməməyə çağırıb. "Mən səninlə mübahisə etmək istəmirəm. Mən bu qanunu dəfələrlə öyrənmişəm, siz onu təhrif edirsiniz", - deyə polis müraciət edib. Sən mənimlə müzakirə etmək üçün çox "kiçik" adamsan. Həm yaşı, həm də biliyi ilə "kiçik", - deyə keçmiş deputat bildirib. Bundan sonra onların arasında dava düşüb, araya girənlər onları sakitləşdirə biliblər.

Bu arada Baqrat Qalstanyanla bağlı dələduzluq ittihamı yenidən aktuallaşıb. "4rd.am" saytı yazır ki, Kanada erməniləri bildirib ki, Baqrat kilsə tikintisi üçün toplanmış 12 milyon dolları oğurlayıb və Ermənistana qaçıb. Onlar belə bir dələduzun Ermənistanı fəlakətə apara biləcəyi barədə ermənilərə xəbərdarlıq edirlər.

Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldıran, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alan revanşistlərdən biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Ermənistanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporu tərəfindən dəstəklənir. O, sülh prosesinin və Ermənistan - Türkiyə əlaqələrinin bərpasına qarşı sərt müxalif mövqe tutub.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana sürüklənir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Azərbaycan MDB-yə üzv dövlətlərlə gələcək əməkdaşlığa böyük əhəmiyyət verir
Moskvada Prezident İlham Əliyevin Prezident Vladimir Putinlə görüşü olub
Prezident İlham Əliyev Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib
Qərbi Azərbaycana qayıdış onların fundamental haqqıdır
Milli Məclisdən ABŞ-yə etiraz
Şuşaya gedən Zəfər yolunun açarı
ABŞ sülhü yox, müharibəni seçir
ABŞ-nin yeni təxribatlarının əsas səbəbi nədir?

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tabeliyində olan "Bibiheybət" GTZ üçün boya qatqılarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 oktyabr 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***


# Payız gəldi, qrip gəldi...

## Mövsümi xəstəliklərə daha çox immun sistemi zəif olanlar yoluxur



**Payızda havaların soyuması ilə bədənin müqaviməti azalır. Orqanizm zəiflədiyi üçün mövsümi xəstəliklərə yoluxma halları da artır.**

Bu fəsildə daha çox rast gəlinən xəstəliklərə qrip (influenza), respirator virus infeksiyaları, bronxit, tonzillit və hətta koronavirus kimi tənəffüs yolları infeksiyaları daxildir.

Xəstəliklərin artmasının əsas səbəbi havanın temperaturunun aşağı düşməsi, bu hava şəraitinə uyğun infeksiyaların üstünlük qazanması və insanların qapalı mühitlərdə daha çox vaxt keçirməsi ilə bağlıdır. Viruslar qapalı məkanlarda daha sürətlə yayıldığı üçün yoluxma riski artır.

### Əksər respirator xəstəliklər tənəffüs yollarına təsir göstərir

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-infeksionist Aişə Kərimovanın sözlərinə görə, son günlər payız fəslinin başlanması ilə birlikdə respirator virus infeksiyalarında artım müşahidə olunur: "Qrip virusu və digər respirator infeksiyalar xüsusilə yeni dərs ilinin başlaması və insanların iş yerlərinə geri qayıtması ilə daha sürətlə yayılmağa başlayır. Bu günlərdə tibb müəssisələrinə müraciətlərdə bu infeksiyalara bağlı halların çoxaldığını görürük. Mövsümi xəstəliklərə daha çox uşaqlar, yaşlılar və immun sistemi zəif olan insanlar yoluxurlar. Uşaqların immun sistemi hələ tam inkişaf etmədiyindən və məktəb, uşaq bağçası kimi yerlərdə bir-biriləri ilə sıx təmasda olduqları üçün onlar daha həssasdırlar. Yaşlılar isə bədənin immun cavabının zəifləməsi səbəbindən xəstəliklərə daha çox meyillidirlər. Eyni zamanda astma, şəkərli diabet və ürək-damar xəstəlikləri kimi xroniki xəstəlikləri olanlar infeksiyalara qarşı daha zəif olurlar".

Əksər respirator xəstəliklərin əsasən tənəffüs yollarına təsir göstərdiyini qeyd edən həkim-infeksionist bildirib ki, əlamətlər arasında burun axıntısı, boğaz ağrısı, öskürək, baş ağrısı, yüksək hərarət, bədən ağrıları və halsızlıq müşahidə olunur. Qrip hallarında daha yüksək hərarət, kəskin baş və əzələ ağrıları önə çıxır. Digər respirator virus xəstəliklərinin bir çoxu isə, adətən, daha yüngül əlamətlərlə özünü göstərir.

### Zəncirvari yoluxmanın qarşısı alınmalıdır

Yoluxmanın qarşısını almaq üçün bir neçə vacib addım atılmalıdır. Aişə Kərimova deyib ki, bunların sırasında ilk növbədə mütəmadi əl yumaq və gigiyenik qaydalara riayət etmək dayanır: "Xüsusilə insanlarla sıx təmasda olan zaman əllərin sabunla yuyulması və ya dezinfeksiyaedici məhlullarla təmizlənməsi vacibdir. Həmçinin qripə qarşı peyvənd olmaq infeksiyanın qarşısını almağın effektiv yollarından biridir. Ölkəmizdə poliklinik xidmətlər çərçivəsində bu peyvənd əhaliyə təklif edilir. İldə bir dəfə payız mövsümünün başlanğıc dövründə immuniteti zəif olan insanlar peyvəndlənməlidir. Hər il həmin ilin ştamına uyğun peyvənd istehsal edilir. Hamilələrin, yaşlıların, 6 aydan böyük uşaqların xüsusən həssas qrup olaraq peyvənd etdirmələrində fayda vardır. Eyni zamanda qapalı və sıx məkanlarda maska taxmaq, sosial məsafəni qorumaq və otaqları havalandırmaq da yoluxma riskini azaldır".

Zəncirvari yoluxma, yəni bir nəfərin bir neçə başqa insana virusu yayması tənəffüs yolu infeksiyalarında çox yüksəkdir. Həkim-infeksionistin sözlərinə görə, qrip və koronavirus kimi viruslar insanın öskürməsi, asqırması və ya, sadəcə, danışması ilə belə havada yayıla bilər. Bir yoluxmuş şəxs qapalı məkanda çox sayda insanı xəstələndirə bilər. Buna görə də zəncirvari yoluxmanın qarşısını almaq üçün insanların xəstə olduqda evdə qalması və ictimai yerlərdən uzaq durması çox vacibdir.

Yoluxma əlamətləri hiss olunarsa, ilk növbədə həkimə müraciət edilməlidir. Ev şəraitində isə çoxlu maye qəbul etmək, istirahət etmək və özünü ətrafdan təcrid etmək vacibdir. Qrip və digər respirator infeksiyalar asanlıqla yayılır, ona görə də xəstə olan şəxsin digər insanlarla təmasdan qaçması, evdə maska taxması və ətrafdakıların da qorunması üçün gigiyena qaydalarına ciddi riayət etməsi məsləhətdir. Həkim məsləhəti olmadan antibiotik qəbul etməkdən çəkinmək lazımdır, çünki bu virus xəstəliklərində antibiotiklərin təsiri yoxdur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Aparatın İqtisadi qanunvericilik şöbəsinin sektor müdiri Nadir Sultanova qardaşı

**ANAR SULTANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4168
Sifariş 2284

Qiyməti 60 qəpik